Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi

ZƏNGƏZUR
CƏMİYYƏTLƏRİ İCTİMAİ BİRLİYİ

**Hacı Nərimanoğlu**

# ŞƏHİDLƏR

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin “Şərqi Zəngəzura qayıdışa mənəvi dəstək” layihəsi çərçivəsində nəşr olunub.

Kitabın məzmunu "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin cavabdehliyindədir və bu baxımdan Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir.

**Bakı - 2022**




Şəhidliyə, Şəhid adının müqəddəsliyinə həsr edilən bu kitab canı, qanı ilə xalqımıza, dövlətimizə qələbə sevinci, qürur, fəxarət, başucalığı bəxş edən Şəhidlərimizə, əziz ailələrinə vəfa, sevgi, ehtiram borcudur.

Torpaq, Bayraq məhəbbəti, mərdik duyğuları, igidlik, şücaətləri ilə Qarabağ, Zəngəzur ellərimizi yağı tapdağından xilas edib Azərbaycana qovuşduran Müzəffər Ordumuzun Şəhid və Qazilərinə, Vətənimizin keşiyində məğrur dayanan əsgər və zabitlərimizə sevgimiz əbədidir.

Hər zaman bizimləsiniz, həmişə sizinləyik!

© H.Nərimanoğlu

# Şəhid ailələrinə qayğı dövlətimizin siyasətində prioritetdir



Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən hərtərəfli diqqət və qayğı dünyada nümunə sayıla bilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində bu məsələyə hər zaman xüsusi əhəmiyyət verdiyini vurğulayaraq bildirib ki, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən göstərilən qayğının bir sıra istiqamətləri özünün şəxsi təşəbbüsü ilə gerçəkləşir və çox geniş, əhatəli sosial tədbirləri əhatə edir: “Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu, bizim təşəbbüsü-

müz idi. Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillərlə təmin edilib. Minik avtomobilləri verilir, 7400 avtomobil verilib. Növbədə duranlar, yəni Birinci Qarabağ müharibəsinin iştirakçıları və qaziləri artıq yaxın gələcəkdə tam təmin ediləcəklər. Təkcə keçən il Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qaziləri evlərlə təmin edilib. Onlardan 850 nəfəri mənzillərlə təmin edilib, İkinci Qarabağ müharibəsinin iştirakçıları, yəni qaziləri və şəhid ailələri, onlara da 750 mənzil verilib, bu proses davam etdirilir. Hesab edirəm ki, Birinci Qarabağ müharibəsində iştirak etmiş bu kateqoriyadan olan insanlara bəlkə də iki il ərzində, tam, yəni növbədə duranlara mənzillər veriləcək. İkinci Qarabağ müharibəsində, həmçinin yaxın bir neçə il ərzində bu şərait yaradılacaq. Yəni, bir daha demək istəyirəm ki, bu, sırf bizim təşəbbüsümüzdür. Biz bunu heç yerdə görməmişik, bu təcrübəni heç yerdən gətirməmişik. Sadəcə olaraq, bu həssas kateqoriyadan olan insanlara müəyyən dərəcədə təsəlli vermək və onların dərdinə şərik olmaq üçün biz bu addımı atırıq. Əlbəttə, bu, böyük vəsait tələb edir. İndi hər kəs bilir ki, bir mənzilin qiyməti neçəyə başa gəlir və bu, büdcə üçün böyük bir yükdür. Amma biz bu yükün altına girmişik və sona qədər bu işi aparacağıq, bu kateqoriyadan olan ta axırıncı insan mənzillə, avtomobillə təmin olunana qədər bu məsələ ilə məşğul olacağıq. Eyni zamanda, şəhid ailələrinin sosial təminatı da yaxşılaşır. Onlara nəzərdə tutulmuş müavinətlərin məbləği müntəzəm olaraq artırılır. Biz daim onları diqqət mərkəzində saxlayacağıq. Bu kateqoriyadan olan insanları, xüsusilə İkinci Qarabağ müharibəsindən sonra işlə təmin etmək üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təlimat verilib. Artıq bu prosesə start verilib. Müharibə zamanı əlini, qolunu, ayağını itirmiş qazilərə ən müasir protezlər təqdim

edilir. Bu proses artıq başa çatmaq üzrədir. Onları normal həyata qaytarmaq üçün biz bunu edirik, özü də bu protezlər ən son texnologiyadır. Yəni Avropanın ən qiymətli, ən bahalı, ən son texnologiyası olan protezlərdir ki, insan normal yaşaya bilər, yeriyə bilər, futbol oynaya bilər. Hətta indi əlini, qolunu itirmiş insan da artıq normal həyata qayıda bilər. Yəni, bu, əsas faktorlardır. Əlbəttə ki, bu siyasət və mənim bu kateqoriyadan olan insanlarla daim təmaslarım cəmiyyətə də göndərilən çox ciddi siqnaldır. Görürəm ki, cəmiyyətdə də bu kateqoriyadan olan insanlara xüsusi isti münasibət var. O cümlədən biznes strukturları, onlara da mən dəfələrlə müraciət etmişəm ki, bu kateqoriyadan olan insanlara qayğı göstərsinlər, hərəsi imkan daxilində - həm işlə təmin etmək üçün, həm onlara maddi yardım göstərmək üçün. Yəni, özləri bu təşəbbüsü göstərsinlər. Bütövlükdə, hesab edirəm ki, cəmiyyətdə bu məsələ ilə bağlı çox düzgün istiqamət var, vahid fikir var. Hər birimiz imkan daxilində bu insanlara daim yardım etməliyik. Atasız qalan uşaqlara yardım etməliyik və edəcəyik."

Bu məsələlər daim ümummilli lider Heydər Əliyevin də siyasətində prioritet istiqamət olub. Ulu Öndər çıxışlarında dəfələrlə Şəhid adının ucalığından danışıb, onların haqq-ədalət uğrunda, eyni zamanda, Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə göstərdiyi fədakarlığa görə böyük hörmət və əbədi ehtirama layiq olduğunu vurğulayıb: *"Vətənin müdafiəsi hər bir vətəndaşın ən ülvi, ən uca, ən müqəddəs borcudur. Bu müqəddəs borcun yerinə yetirilməsində Şəhid olanlar ən böyük hörmət və ehtirama layiqdir. Onların qəhrəmanlığı xalqın xatirəsində daim yaşayacaqdır."*

2020-ci il sentyabrın 27-də başlanan, 44 günlük savaşda Ordumuzu inamla, siyasi iradəsi, Komandanlıq məharəti ilə

qələbəyə aparan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəhid və qazilərimizə daimi qayğısını xalqımız yüksək dəyərləndirir. Prezident İlham Əliyev 2021-ci il fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində çıxışında deyib: *"Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı."*

"Qarabağ Azərbaycandır!"- deyə ölümün gözünə dik baxan şəhidlərimiz bu zəfərlə həm də xalqımızın milli mənlik, heysiyyətinə, namusuna vurulan ləkəni qanla yudular, ulu vətənin şərəf və ləyaqətini yenidən ucaltdılar. Artıq iki ildir ki, dünyanın öndə gedən beyin mərkəzləri, hərbi analitikləri Azərbaycan əsgərinin Qarabağ uğrunda savaşda göstərdiyi misilsiz şücaətin, döyüş, fiziki və mənəvi ruhun mənbəyini öyrənirlər. Qarabağın Azərbaycanın ayrılmaz parçası olduğunu, xalqımızın tarixində, qan yaddaşında, mənəvi dünyasına nə qədər dərinliklərə hopduğunu dərk etmək üçün elə bu 44 günlük savaşın fəlsəfəsini, qəhrəmanlıq tarixinin mahiyyətini öyrənmək kifayətdir.

Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2016-cı il aprelin 7-də Heydər Məscidində Vətən uğrunda şəhid olan və yaralanan hərbçilərin anaları, ictimaiyyətin nümayəndələri ilə görüşdəki çıxışında deyib: *"Əziz analar, mən bir ana kimi sizin qarşınızda baş əyirəm. Siz elə övladlar böyütmüsünüz ki, bu gün bütün xalq onlarla fəxr edir. Əlbəttə, heç bir ana istəməz ki, müharibə olsun, övladlarımız gənc yaşında dünyalarını*

*dəyişsin. Azərbaycan dövləti bu münaqişəsinin sülh yolu ilə həlli üçün artıq 20 ildən çoxdur ki, bütün səylərini göstərir. Biz istəyirik ki, torpaqlarımız azad edilsin. Biz istəyirik ki, insanlarımız öz doğma yurdlarına qayıtsın. Biz işğalçı deyilik. Biz işğalçı ilə mübarizə aparan millətik. Bizim heç bir başqa millətin, başqa xalqın torpağında gözümüz yoxdur. Biz, sadəcə, öz torpaqlarımızı işğaldan azad etmək istəyirik. Bu həqiqəti bütün dünya bilir və artıq qəbul etməlidir. Ədalətsiz, işğalçı siyasətin qarşısını almaq üçün bizim qəhrəman ordumuz, qəhrəman övladlarımız var. Azərbaycan xalqı üçün hər bir əsgərimiz dəyərlidir və əzizdir. Dünyanın ən böyük sərvəti olan ömrünü Vətən naminə qurban verən hər bir övladımız Azərbaycanın tarixində qəhrəman kimi yaşayacaq. Bu günlər bütün xalqımız ordumuza dəstək verir. Əziz analar, sizin qəlbinizdə yaşayan ağrı və kədər əminəm ki, hər bir Azərbaycan qadınının ürəyində yaşayır. Bir daha çox sağ olun. Çox sağ olun ki, belə övladlar böyütmüsünüz. Allah sizləri, Azərbaycanı qorusun!"*

Vətən müharibəsi dövründə Azərbaycan hərbçilərinin peşəkarlığı, rəşadət, cəsarət, qəhrəmanlığı, fədakarlığı, ölümün gözünə dik baxmağı təkrarolunmazdır, hər bir şəhidimizin həyatı, ömür yolu bir şanlı tarixdir. Azərbaycan xalqı, yaxın, uzaq ölkələrdə yaşayan hər bir azərbaycanlı haqlı olaraq şəhidlərimizlə fəxr edir. Məhz onların sayəsində Azərbaycan dövləti tarixi ədaləti bərpa etdi, dünyanın bir sıra supergüclərinin fəal hərbi-siyasi dəstəyi ilə bədnam qonşularımızın əbədi hesab etdikləri işğalın nəticələrini, mənfur niyyətlərini puça çıxardı.

Fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda Prezident İlham Əliyevin Milli Qəhrəman, şəhid general-mayor Polad Həşimovun qızı, Azərbaycan Tibb Universitetinin birinci kurs

tələbəsi Aybəniz Həşimovaya dediyi bu sözlər hamını təsirləndirdi; "Sən fəxr elə ki, Polad Həşimovun qızısan. O, öz şəhadəti ilə, xalqın müharibəyə hazırlanmasında da çox böyük rol oynadı."

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yarandığı ilk günlərdən şəhid ailələri, qazı, əlil döyüşçülərimizə diqqət və qayğını əsas fəaliyyət istiqamətlərindən biri sayıb. 2021-ci ildə Agentliyin elan etdiyi ilk qrant müsabiqəsində; “Vətən müharibəsi şəhidlərinin adlarının əbədiləşdirilməsi”, “Vətən müharibəsi iştirakçılarının tanıdılması, gənc nəsilin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində tədbirlərin təşkili”; “Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar ölkə daxilində tədbirlərin təşkili”; “Mina qurbanlarına və onların ailələrinə dəstəyin göstərilməsi üzrə təşəbbüslərinin dəstəklənməsi”, “Vətən Müharibəsində iştirak edən qazilərə sosial-psixoloji dəstəyin göstərilməsi”, “Şəhid ailələri və qazilərin sosial problemlərinin həllinə yönələn təşəbbüslərin dəstəklənməsi”, “Müharibənin təsirinə məruz qalan əhali qrupları (uşaqlar, gənclər, yaşlılar, kişilər, qadınlar) və infrastruktur haqqında araşdırmaların aparılması və hesabatların hazırlanması” kimi məsələlər aparıcı mövzular sırasında olub. İnanırıq ki, Agentlik belə layihələrin maliyyələşdirilməsinə bundan sonra da dəstək verməkdə davam edəcəkdir.

Agentliyin maliyyə yardımı ilə bu il yaranmasının 30 ili tamam olan “Zəngəzur” Cəmiyyətləri İctimai Birliyinin həyata keçirdiyi “Şərqi Zəngəzura qayıdışa mənəvi dəstək” layihəsi çərçivəsində buraxılan “Şəhidlər” kitabı da vətəndaş cəmiyyəti sektorunun, qeyri-hökumət təşkilatlarının şəhidlərə, onların uca, müqəDDDəs məramına xüsusi ehtiramı-

nın təzahürü, şəhidlərimizə daimi sevgi və ehtiramının ifadəsidir.

Kitabın müəllifi və layihənin rəhbəri, publisist, tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlu I Qarabağ müharibəsi illərində AZƏRTAC-ın "Zəngəzur" İnformasiya Mərkəzinin rəhbəri - cəbhə bölgələri üzrə xüsusi müxbiri olub, Qarabağ müharibəsi veteranı, şəhidlərimizin ömür, döyüş yoluna həsr edilmiş 5 kitabın, sənədli filmlərin müəllifidir.

28 illik işğaldan azad edilən Şərqi Zəngəzur bölgəsi (Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan rayonları) şəhidlərinin xatirəsinə həsr edilən bu kitab Vətən uğrunda canlarını fəda etmiş igidlərimizin doğma və əzizləri üçün təskinlik olacaq, yeniyetmə və gənclərimizin hərbi vətənsevərlik ruhunda böyüməsinə töhfə verəcək, stolüstü kitaba çevriləcəkdir.

Yazılanlar tarixdə qalır, daimi yaşayır, yaddaşlara həkk olunur, nəsildən nəslə ötürülür.

Vətən, Torpaq uğrunda canlarını qurban vermiş Şəhidlərimizin hər birinin adı, xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

**Emin Əliyev**
*Qubadlı Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri, şəhid Milli Qəhrəman Əliyar Əliyevin oğlu, Vətən müharibəsi veteranı, ehtiyatda olan mayor*










# 1. Şəhidlik - ən uca, müqəddəs məqamdır

Torpaq, Vətən, Haqq, Ədalət uğrunda savaş müqəddəs kitabımız "Qurani-Kərim"də ən böyük savab əməl hesab olunur və bu yolda canını qurban verənlər müqəddəs Şəhidlik zirvəsinə ucalır, dinimizə görə Haqq dərgahında əcrə yetişmiş, cənnətə qovuşmuş sayılırlar.

"Haqq yolunda şəhid olanları ölmüş hesab etməyin, əksinə, onlar öz Rəbbinin dərgahında diridirlər və əcrə yetişən sayılırlar." Ali-İmran, 169.

"Allah yolunda savaşın sizinlə savaşanlarla. Ancaq təcavüz etməyin. Təcavüzkarları sevməz Allah. Harda yaxalasanız öldürün onları, sizi çıxardıqları yerdən siz də çıxarın onları." Bəqərə, 190-194

"Ey iman sahibləri, qisas alırsınızsa, yaşayırsınız deməli, beləcə qorunursunuz Allahın əzabından". Bəqərə, 179

"Fitnədən əsər-əlamət qalmayana qədər onlarla savaşın". Ənfal, 39

"Sizə qarşı hərb açıldığı üçün, zülmə uğramanız səbəbi ilə cihada izin verildi". Həcc,39

"Qüvvəniz yetən qədər qüvvə yığın, savaş atlarını hazır saxlayın ki, qorxuya salasınız Allahın və sizin düşməninizi". Ənfal, 60

"Küfrü artırmaq deməkdir savaşı başqa aya keçirmək. Bununla kafirlər azdırırlar sizi". Tövbə, 37

"Ey Peyğəmbər! Savaşa qalx kafirlərlə. Budur o böyük qurtuluş".Tövbə, 73 və sair.

Məhəmməd Peyğəmbər (s.ə.s), Həzrət Əli (r.a), İmam Hüseyn (r.a) torpaq, din uğrunda, Allahın sevmədiyi, öldürməyi əmr etdiyi təcavüzkarlarla savaşda özlərindən son-

ra gələn islam ümmətinə, müsəlmanlara Şəhid olmağın yolunu, nümunəsini, mərtəbəsini də göstərmişlər. Bədir, Hüneyn, Əbtac, Xeybər döyüşlərində Peyğəmbərimiz özü öndə getmiş, hücum, müdafiə planları qurmuş, sərkərdəlik etmiş, hər dəfə də qalib olmuşdu. Uhud döyüşündə çoxlu yara alıb al qanı axan Peyğəmbərimiz özünün sonuncu oxlarını da yanında vuruşan Əbu Vənnasa verərək deyib: - Al bu oxları da at, vur, öldür düşməni!

Peyğəmbərimizin qılıncı üzərində yazılmışdı: "Qorxaqlıqda ar və zillət, irəli atılmaqda şərəf və izzət vardır".

Şəhidlik hər bir türk düşüncəsində, dünyagörüşündə bu dünyada yetişə biləcəyi ən yüksək məqamdır. Türkün böyük şairi Mehmet Akif Ərsoyun Çanakkala şəhidlərinə həsr etdiyi dahiyanə şeirin son misraları sanki eynilə Azərbaycan şəhidlərinə yazılıb:

*“Ey şehid oğlu şehid, isteme benden makber,*
*sana âgûşunu açmış duruyor Peygamber."*

Azərbaycanın 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük savaşda canlarını qurban verən şəhidlərimizin böyük bir qismi 1988-1994-cü il I Qarabağ müharibəsi şəhidlərinin övladları, mənəvi yetirmələri və davamçıları idi. Allahtaala şəhidlərimizi cənnətlə müjdələmişdir və sevgili Peygəmbərimiz isti qucağını açıb şəhidlərimizi gözləyir.

Şair Kamil Sərbəndi yazır:

*Kim Şəhid olmuş, bəqa mülkündə cənnətdir yeri,*
*Atəşə düşməz, nə də görməz əzabi- məhşəri.*
*Bunları Allah edib nazil, yazıb Peyğəmbəri*
*Ayeyi-Quran ilə dillərdə əzbərdir Şəhid.*

Şəhidlərimiz fəxrimiz, başucalığımızdır, torpağı vətən edənlərimizdir, düşmən belini qıranlarımız, xalqımızın mənlik, heysiyyətini özünə qaytaranlarımızdır, əyilmiş qəddini, bağlı dilini, qırpıq gözlərini, bağlı qollarını açanlarımız, sapı özümüzdən olan xəyanətkarın kökünü kəsib doğrayanlarımızdır.

*Şəhidlər,*
*Siz torpaq altında dərin köklərimizsiz*
*yatırsınız al- qan içində.*
*Siz torpaq altında dərin uyqudaykən*
*düşməni cağırdılar*
*satıldıq , oyanın!!!*
*Biz torpaq üstündə dərin uyqudayıq*
*qalxın, oyadın, oyandırın bizi,*
*Şəhidlər!!!*

Xalqımıza, türksoylu qardaş ölkələrimizə, bütün azadlıqsevər millətlərə qələbə sevinci gətirən Ordumuzun II Qarabağ savaşında qazandığı zəfər, xüsusilə alınmaz, əlçatmaz, ünyetməz sayılan Şuşa qalasının alınması dünya hərb tarixinə yazılan unikal döyüş səhifəsidir, nadir qəhrəmanlıq, cəsarət, şücaət nümunəsidir. İnsan ayağı dəyməyən keçilməz meşəliklərlə, vəhşi heyvanların əhatəsində, yalnız təbiəin yetirdiyi ağac, bitkilərlə qidalanan, özlərinə yeyəcək tapan xüsusi təyinatlılarımız gündüzlər gizlənib yalnız gecələr qibləyə - Şuşaya doğru irəliləyib yol gedirdilər. Şuşaya aparan bütün yollarda istehkamlar düzəldən ermənilərin yatsa yuxularına girməzdi ki, insan ayağı dəyməyən bu sıldırım hündür qayalıqlardan bəni-insan yuxarı dırmaşa bilər, keçilməzi vəhşi meşəliklərdən kimsə cığır aça bilər. Bunu yalnız Azərbaycan əsgəri bacara bilərdi. Onlar hamısı

yüngül silahlı idilər, ilk sırada döyüşə atılanlar də səs salmamaq üçün bıçaq, süngü ilə, illərin təlim məşqlərində qazandıqları əlbəyaxa savaşlarla qarşılarına keçənləri qırıb çatırdılar. İsti otaqlarda yeyib yatmış mənfur düşmən bu qorxunc qara paltarlıların qorxubilməyən hücumu qarşısında əzilib sınır, məhv olurdular. Hətta, avtomat atəşlərindən ağır yara alan döyüşçülər də qanları axa-axa caynaqlarını keçirdiyi əzanı dartıb qoparmadan, can almadan can vermirdilər.

Üzü üstə yerə sərilən hər əsgəri başqası əvəz edirdi. Belə savaşı yalnız  kino-filmlərdə görünmmüşdü. Onlar xəyalı gerçəyə  çevirmişdilər, Azərbaycan əsgərlərinin fiziki, mənəvi ruhu, enerjisi bitib tükənmək bilmirdi. Atilla qoşunlarının Avropa yürüşlərində düşmən üstünə atılanda hayqırdığı "vur aaa!!!" nidası iki min ildir ki "uraaaa" sədası ilə yaddaşlara həkk olunduğu kimi, Azərbaycan xüsusi təyinatlılarının "Allahü-əkbər!" nidaları da düşməni eləcə vahiməyə salırdı. Budur müsəlman, islam, türk ruhu, iman, inamı! 30 ildən bəri Qarabağın hər qarışını istehkama çevirən düşmən və onun hərbi-siyasi havadarları bunu nəzərə almamışdı, anlamamışdı.

Sıldırım qayalarda  biri-birinin çiyinləri üzərində Şuşa qalasına qalxan Azərbaycan əsgərinin bu qəhrəmanlığı, şücaət, rəşadəti ən gözəl film, bədii əsər mövzusudur, həm də ən böyük alqışa, əbədi sevgiyə layiqdir.

*Alqış Vətən torpağını,*
*Candan əziz bilənlərə.*
*Alqış olsun Vətən üçün,*
*Döyüşlərdə ölənlərə!*
*Belə oğullarla torpaq – Vətəndir,*
*Əllərdən düşməyən bayraq – Vətəndir,*

*İgidlər uyuyan torpaq - Vətəndir,*
*Diz çökək, güc alaq Şəhid adından,*
*Torpaq Vətən olur Şəhid qanından.*

Ana kitabımız olan "Kitabi-Dədə Qorqud"da, Dədə Qorqudun öyüd, vəsiyyət, kəlamlarında yağı düşmənlərdən intiqam, qisas almaq ən şərəfli borc, örnək sayılıb:

Qazan xan durub söylədi:

*- Uca Tanrıdan səs gəldi.*
*Beyrək mənə süs gəldi -*
*Niyə qanım yerdə qalıb?*
*Alın onun qisasını...*

28 ildən bəri yağı tapdağında qalmış Qarabağın əsarətdən azad edilməsi uğrunda döyüşən Vətənimizin ən seçmə gəncləri ürəklərində həm də bu inamı daşıyır, intiqam, qisas üçün savaşır, bu ruhla, amalla vuruşurdular.

*Diriyik, ömrümüz tez qırılsa da,*
*Hərəmiz Vətənin bir parçasıyıq-*
*Ruhumuzla yurdu qoruyasıyıq.*

Torpaq, Vətən, Bayraq sevgisi şəhidlərimizin qanında, canında idi. Müharibədən onlarla canlı kadr yaddaşlarda əks olunub; qanı axmaqda olan yaralı qazilərimiz son nəfəsdə dövlət bayrağımızı gözlərinə, köksünə, ağuşuna, yaralı sinəsinə sıxır, qanı ilə isladır, torpağa qovuşmadan sanki bayrağına borcunu ödəməsi, əmri yerinə yetirməsi barədə raport verir.

*Bayraqları bayraq edən üstündəki qandır,*
*Torpaq-əgər uğrunda ölən varsa, Vətəndir!*
*Torpaq Şəhid qanı ilə suvarılmasa,*
*Azadlıq ağacı bar verməz.*

Qarabağı Azərbaycana, Azərbaycanı Qarabağa qovuşduran müzəffər Ordumuzun Şəhid və qazilərinə, əsgərlərinə sevgimiz əbədidir, onlar hər zaman bizimlədir!

*Ölüm sevinməsin qoy! Ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirə tək, qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər!*



# ŞƏHİDLƏR ANISINA, DOĞMALAR ACISINA 4 ESSE

## Şəhid atam - qalibiyyət bayrağım

Mən şəhid anasıyam, dözürəm birtəhər, ay parçası kimi gəlinimə baxdıqca ürəyim şan-şan əriyib tökülür, şam kimi əriyir gözümün qabağında, özü bəyənib, sevib, seçib almışdı. Bir toy eləmişdik ki, hamı neçə illər o toydan danışırdı. Elə mehriban idilər ki. Hələ neçə il idi birinin sözün o birinə xoş gəlmədiyini görməmişdim, bir baxışla anlaşırdılar. 60 gündür sifətindən kədər, gözündən yaş əskik olmayıb Xalidənin.

Balalarının dilinin əzbəridi Nizami, şükür yaradanın böyüklüyünə ki, üç övlad verib, onların nəfəsinə, həvəsinə ayaq üstə qalmışıq, atası Qorçu da, mən də, gəlin də. Yoxsa yerimiz yanında çoxdan hazırdı. Allaha ağır getməsin, birdən elə həvəsiyirəm, elə qəribsəyirəm ki, balamın yanına tez getmək üçün, heç olmasa o dünyada tək qalmasın.

*Balasız ananın gülərmi üzü,*
*Qəmlidir ürəyi, nəmlidir gözü.*
*Nizami, nə vaxtsız tərk etdin bizi,*
*Ahımdan ürəyim, dilim ağlayır.*
*Necə tab eləyir, necə tablaşır,*
*Bu qədər mehnətə, dərdə ürəyim.*
*İnanmazdım dözə, bu ağır yükə,*
*Bir yumruq boyunda qanlı ürəyim.*

Böyüyü 5-ci sinifdə oxuyur, şeirlər tapıb əzbərləyir ki, məktəbdə tədbirdə deyəcəyəm.

*Döyüşlərə igid kimi,*
*Yollanıbdı mənim atam.*

*İstəyirəm böyüyəndə,*
*Amalını uca tutam.*
*Layiq olam şöhrətinə,*
*Adına mən*
*Ömrüm boyu yanam gərək,*
*Vətənimin oduna mən.*
*Şəhid atam düşmənlərə*
*Göz dağıdır.*
*Başım üstə dalğalanan*
*Qalibiyyət bayrağımdır.*

O günü görürəm dəftərinə yazıb: "Ucaboy, gülərüz, mehriban atamız! Sənin Aynurən, Zaurun, Aysun istəkli atamızın Şəhid adından qürur duyurlar. Adın dilimizdə, nəcib, nurlu sifətin gözümüzdə, həsrətin qəlbimizdə həmişə yaşayacaqdır, ata!

*Neçə ki, dünya var, Azərbaycan var,*
*Şəhidlik adını daşıyacaqsan.*
*Aldı öz qoynuna səni bu Vətən,*
*Qəlbimdə əbədi yaşayacaqsan."*

İstedadlı şairəmiz var Bəsti Bərdəli, Mingəçevirdə yaşayır, bu şeri gəlinimə yazıb:

**Ağlama, gözəl!**
*Şəhid Nizami Səmədovun*
*ömür-gün yoldaşı Xalidəyə*

*Bu dərdli qəlbimi göynətmə belə,*
*Qövr edən yaramı tərpətmə belə,*
*Ağlayıb buludu kövrəltmə belə,*
*Ağlama, sən Allah, ağlama, gözəl.*

*Təzə çiçək kimi erkən yaşında,*
*Donmusan həsrətin soyuq qışında,*
*Elə qəmli- qəmli məzar başında*
*Ağlama, sən Allah, ağlama, gözəl.*

*O şux qamətini bükmə belə sən,*
*Didib könülləri sökmə belə sən,*
*Gözünün yaşını tökmə belə sən,*
*Ağlama, sən Allah, ağlama, gözəl.*

*Ürəyin qanayır, gözlərin daşır,*
*Ümid aza- aza sədləri aşır,*
*Bəndələr də çaşır, Allah da çaşır,*
*Ağlama, sən Allah, ağlama, gözəl."*

Xalidənin İsmayıllı dağlarının qoynunda uyuyan, ilk sevgisi, üç ciyərparasının atası Nizamiyə ünvanladığı ürək sözləri. " ...Bircə bileydin, sənsiz necə çətindi, ürəyimə şaxta, boran, qar ələndi, sən gedəli ovundurmur heç nə məni, nə yayın istisi, nə təbiətin gözəlliyi isindirmir qəlbimi. Qanadı qırılmış yaralı quşam, elə çətindi dik duram, ayaq üstə dolaşam. Gecələr qor dolur, bumbuz olur yatağım, göz yaşımla islanır yanaqlarım. Sənli günlərimin nurlu xatirələri dolanır, dayanır göz önündə, heyif, heyif ki, ötən günlər qayıtmaz bir daha, qalıb ömrün o üzündə.

Söylə, yadındamı ilk görüş yeri, unutmaq olarmı sənli günləri. Necə də xoşbəxtdim bir zaman Allah, yerlər də, göylər də mənimdi Alllah, xoşbəxtlərin xoşbəxtiydim dünyada, bir əlçatmaz dünyam vardı dünyada.

Əllərim əllərinə, gözlərim gözlərinə həsrət qalıb, gülüşüm dodağımda, təbəssümüm üzümdə donub qalıb. Ömrümüzün axı bahar çağıydı, üç gül üzlü balamız bar-bəhrəli




bağıydı, sən o bağın bağbanı, arxamız, vüqarlı bir dağ idin, indi bəs o bağ hanı?!

Evdə ruhun dolanır, şəkilindən boylanır; görürsənmi Aynurən necə böyük qız olub, Zaur da yaşa dolub, sən görəndə bu Aysu bapbalaca qız idi, bir şirin dil naz idi, dillərindən düşmür adın, indi dönüb and yerinə sənin ulu Şəhid adın.

Son günündə harayına yetmədim, bir gül olub qəbrin üstə bitmədim, sənə vəfasızmı deyim, yox, yox, lal olar dilim, sən könül bağçamın ötən bülbülü, mənsə çiçək açmış bir novruzgülü... Arzu dünyam viran oldu, könül bağçam talan oldu, için-için yanan şamam, sənsizliyə alışamam, ay ötüb il keçsə də, saç ağarıb, əl əssə də, dilimdə adın bitəcək, arzuların göyərəcək, nəvələr də boy atacaq, arzu, istəyə çatacaq, baxıb otuz beş yaşlı şəklinə, fəxrlə alacaqlar əlinə, üz-gözündən öpəcəklər, sonra dönüb deyəcəklər: - bizim, gənc, gözəl atamız, hər vaxt cavan qalanımız, örnəkdir bizə həyatın, müqəddəsdir Şəhid adın!”

## Doğmaların şeirlərində əbədiləşən Şəhid

Rəşad özü atasına şeir yazmışdı, iş yerində yoldaşları atasının anım gününü qeyd edirdilər, gəlib apardılar, orda söylədi:

*Ata, gəlib ad gününə*
*Sənin iş yoldaşların.*
*Qırx yaşını qeyd edir,*
*Dostların, tanışların.*

*Hamı səndən danışır,*
*Hünərindən söz açır.*
*Atalar yaxşı deyib,*
*"İgid ölür, adı qalır".*

*Vətənə qurban verdin,*
*Ata, sən öz canını.*
*Vətən də əzizləyər,*
*Sənin Şəhid adını.*

Kapitan Nurəddin Sadıqovun Tovuzun Alakol kəndində yaşayan atasına sifariş eləmişdim ki Şəhid oğlu haqqında hazırladığım kitaba daxil eləmək üçün ürək sözlərini yazıb göndərsin. Bu şeiri də o yazmışdı.

*Sən idin ömür çırağım,*
*Ay mənim, könül nübarım.*
*Biləyimdə şah damarım,*
*Heyif səndən, ay Nürəddin.*

*Ayrılıqdan ölüm yeydi,*
*Yoxluğun qəddimi əydi,*
*O mərmi mənə dəyəydi,*
*Mən öləydim, ay Nürəddin.*

*Qəbrinin üstə gedərəm,*
*Gözümdən qan yaş süzərəm,*
*Sənə qəmli söz düzərəm,*
*Heyif sənə, ay Nürəddin.*
*Balaların gözü yolda,*
*Harda qaldın, söylə harda?*
*Kifayəti qoydun darda,*
*Heyif səndən, ay Nürəddin.*

*Düşmənləri qırıb biçdi,*
*Yağı onunçun bir heçdi,*
*El yolunda candan keçdi,*
*Mənim oğlum, mənim oğlum.*

*Tovuzda dünyaya gəldi,*
*Səsi aləmə yüksəldi,*
*Ağdamda döyüşə girdi,*
*Mənim igid, ərən oğlum.*

*Alakolun ilk Şəhidi,*
*Dağ vüqarlı bir ər idi,*
*İndi elin and yeridi,*
*Mənim oğlum, mənim oğlum.*

Bacısı Pərinin də bacıları adından yazıb göndərdiyi xatirə dəftərində Nurəddinə bir xeyli şeir, bayatı var idi.

*Başıma qara bağlaram,*
*Sinəmə yara bağlaram,*
*Nə qədər ki, canım var,*
*Qardaş deyib, ağlaram.*

*Ocağım, közüm qardaş,*
*Dil açan sözüm qardaş,*
*Qanına boyanmısan,*
*Bəs necə dözüm, qardaş?*

*Yazım, baharım, qayıt,*
*Dövlətim, varım qayıt*
*Sənsiz dözə bilmirik,*
*Qayıt, qardaşım, qayıt.*




Qardaşım həmişə deyərdi ki, heç kimə xeyir vermədən yaşamaq yaşamaq deyil. İnsan gərək öləndən sonra da yaşaya bilə. Elə bil arzusu çin olub qardaşımın. Onun taleyi, ömrü yarımçıq qalsa da, adı hər zaman, əbədiyyət qədər yaşayacaq. Bir vaxtlar o bizim təkcə qardaşımız idi, indi onun şəhid adı ilə Mingəçevir də, Tovuz da fəxr edir. Xalq yaxşıları həmişə yaşadır. Ölüm haqdır. Yaradan da Allahdır və Allahtala yaratdıqlarının ən yaxşılarını, qiymətlilərini sevib Şəhid məqamıda öz əbədi dərgahına aparır. Müqəddəs Quran kitabımızda yazılana mən ürəkdən inanıram; Torpaq, Vətən, Din uğrunda canından keçənlər cənnətməkan olurlar. Yerin behişt olsun, bacılarını gözü yaşlı qoyub gedən qardaş.

Nurəddinin vəfalı ömür-gün yoldaşı Kifayət xanım bir cüt gül balasını atalarının görmək istədiyi layiqli insanlar kimi böyütdü, bu yolda bütün ağrı-acılara sinə gərdi. Bu da onun Nurəddinə ünvanladığı misralardır.

*Dünyadan vədəsiz köçüb gedənim,*
*Ömrün bahar çağı hara getdin, sən?*
*Arxanca həsrətim boylanır mənim,*
*Ömrün bahar çağı hara getdin, sən?*

*Kədər çiçək açıb gözlərimizdə,*
*Səndən söhbət açır cığır da, iz də.*
*Bir nisgil yaşayır baxışda, gözdə,*
*Ömrün bahar çağı hara getdin, sən?*

*Aliyən, Rəşadın ovunmur hələ,*
*Ağrılı kəlmələr yatmayır dilə.*
*Sənsiz ömrüm-günüm gəlməyir ələ,*
*Ömrün bahar çağı hara getdin, sən?*

Rəşad ata vəsiyyətinə, dediyinə əməl elədi:

*Böyüyüb zabit olacam,*
*Atamın qanın alacam.*
*Vətənimə kəm baxanın,*
*Gözlərini kor qoyacam.*

# Şəhid anasının ağıları

Şəhid Vaqif Abdullayevin anası mənəm, nə desin, nə danışsın, 28 yaşında balası, bir tək ciyərparası dünyadan köçən ana nə danışa bilər?!

Vaqif Şəhid gedən gündən dilimdə bu bayatılardı, ağılardı bitən:

*Əzizinəm hər aylar,*
*Hər fəsillər, hər aylar,*
*Ölən günümə kimi*
*Dilim Vaqif haraylar.*

*Durma gəl talan canım,*
*Odlara yanan canım.*
*Bala deyib yaş tökür*
*Balasız qalan canım.*

*Gələn qara xəbərin*
*Oğul, qəddimi əydi.*
*Qara qurşun gülllər*
*Kaş səndən ötüşəydi,*
*Ürəyimə dəyəydi.*

*Əzizim balabanı,*
*Asta çal balabanı,*
*Hamının balası gəldi,*
*Bəs mənim balam hanı?*

*Eləmi bala dağı,*
*Bal dağı, bala dağı*
*Getməz ömrü uzunu*
*Sinədən bala dağı.*

Yevlaxdakı bu bağ-bağçanın hər künc-bucağında izi var balamın, gəzirəm, gözümün qabağına gətirirəm, körpəlikdən böyüyüb əsgər gedənə qədər keçən günlərini bayatıynan, ağıynan əzizləyirəm, əlim açılmır o meyvələrin birinə əl uzadıb ağzıma qoyam.




*Əliynən ağac əkdi,*
*Üstündə barı qaldı.*
*Şəhid balam yemədi,*
*Üstündə payı qaldı.*

*Aşiq yara kimi var,*
*Belə yara kimin var.*
*Mənim tək dərdli ana,*
*Elə bala kimin var.*

Öz-özümə danışıram, paltarların gündə öpürəm, iyin alıram, gözümdə yaş qalmıyanda elə bilirəm gəlib dayanıb qarşmda ki məni əzizlə, yenə ağı deyirəm.

*Bu nə kədər, bu nə qəmdi*
*Gözlərimdən şeh ələndi,*
*Arzularım güllələndi*
*Anam, mənə bir ağı de.*

Çıxıram bax o açığa, üz tuturam o dağlara, deyirəm:

*Min arzu bəsləyirdim*
*Mən axı hər nəfəsdə*
*Qanadım var, göyüm yox,*
*Necə uçum qəfəsdə?*

*Mən aşıq qoşa dağlar*
*Çatıb baş-başa dağlar,*
*Sizdə oğul itirdim*
*Dönəsiz daşa dağlar.*

Hər gecə gedirəm balamın qəbrinin üstünə, səsimnən bir çağırıram, "balam, gəldim heyyy", sonra başının üstündə oturub lay-lay deyirəm, mən lay-lay deməsəm yatmırdı ki, elə öyrəşmişdi, davaya gedəndə yalvardım ki, qoyun mən də gedim, balamdan ayrımayın məni, o mənsiz dözə bilməz, qoymadılar. Dedi: - Ana, ölsəm hər axşam gəl başımın üstə lay-lay de, yuxuya gedim, sonra qayıt gəl, elə də eliyirəm, hardan almışam təkcə balamı, dərdim odu ki, mən ölənnən sonra kim lay-lay deyəcək balama, körpəmə, yata bilməyəcək gecələr...Allah, içim yanır, tüstüm təpəmdən çıxır, hamını zara gətirmişəm ah-naləmnən. Tək öz balamı ağlamıram ki, gör nə qədər say-seçmə,  igid, əli qız əlinə dəyməmiş övladlarımız getdi, qız, gəlinlərimiz başsız, ərsiz qaldı, anaların sinəsinə çalın-çarpaz sağalmaz yara vuruldu, Allah lənət eləsin baiskarlara.Qarğıyıram yağı düşməni gecə-gündüz, o kafırları mənim qarğışım yıxacaq, evləri başına uçacaq, vallah, billah.

*Əzizim kimə qaldı,*
*Ellər gör kimə qaldı,*
*Düşmən, belin qırılsın*
*Analar göz yaşlı qaldı.*

Fikrim, zikrim madarım Vaqifnəndi, elə bilirəm Şəhid balam da anasına ağı deyir, diriykən ömürlük ayaq üstə cismi ölü gəzən anasına.

*Mən öldüm, anam qaldı*
*Oduma yanan qaldı.*
*Baxtı qara anamın*
*Sinəsi dağlı qaldı.*

Neçə illər idi bu günü həsrətlə gözləyirdim ki, Vətənimiz ağ günə çıxa, bu millət qəddin düzəldə. Deyirdim:

*Vətəndə*
*İgid gərək Vətəndə,*
*Elin sözü bir olsa,*
*Qalib sərkərdə olsa*
*Yağı düşmən qalammaz*
*Bizim cənnət Vətəndə.*

İndi özüm özümə toxdaqlıq verirəm ki, balamın qanı yerdə qalmadı, yağı düşmən bizdən ikiqat artıq itki verdi, torpaqlarımızdan qovulub, təskinlik tapıram ki 3 min Şəhid versək də, bu dəfəki savaşda qalib olduq.

*Yağı tapdağında*
*Qala bilməz torpaqlar.*
*Şəhid ölməz, Şəhidə*
*Yas tutmayın, analar!*

## Şəhidim - ilk sevgim, son məhəbbətim...

Şəhid olandan sonra anladım ki, sevgi deyilən şey bu imiş - onsuz yaşaya bilməmək. Sağlığında heç məktub yazmamışdıq bir-birimizə, həmişə bir yerdə olmuşuq uşaqlıqdan, amma bir dəfə lap mərhəm vaxtlarında dilimdən çıxdı: -sən yanımda olmasan, neyniyərəm mən, bu sözləri hər gün sənə deyib cavab almasam, içimdə necə saxlaram... –Məktub yazarsan, köçürərsən kağıza, qayıdanda gəlib oxuyacam.

Yazıram indi, yanımda olanda deyə bilmədiklərimi də indi xəyalən deyirəm, könlümün çırpıntıları ürəyimə nətər gəlirsə, sonra özümü qoyuram onun yerinə, ondan da özümə cavab yazıram, eləcə də vərəqlərə köçürürəm, hər səhifənin başına da yazıram “Nailədən Sabirə”, “Sabirdən Nailəyə”yə.

Kənddə o ağac qalmamışdı ki, bıçaqla S+N= ürək şəkli cızmasın, haranı rəngləyirdi, qurtarıb aşağı düşəndə baxırdıq ki, S+N həkk eləyib, ana, bacılarımız baxırdılar, gülürdülər, Leyli-Məcnun qoymuşdular adımızı. Məktəbdə oxuyandan bir-birimizə belə istəkli idik, könül vermişdik, sözsüz, söhbətsiz, məktəbə bir yerdə qoşa gedib gəlirdik, ikimiz də ədəbiyyat, kitab, şeir həvəslisiydik. Ailə qurandan sonra üst-üstə bəlkə beş gün ayrı qalmışıq, ya o Goranboya ata-anasıgilə getməli olub, ya mən rayona getmişəm. İndi o günlərin peşmanlığın çəkirəm, necə dözmüşdüm o bir-iki günün ayrılığına. Amma indi ...

Şeirlər seçirəm, adlarımızın baş hərflərinin ardıcıllığı ilə düzürəm sıraya, şəkillərini sərirəm qarşıma, yazdıqlarımı Sabirin ruhuna pıçıldayıram, oxuyuram, danışıram, dərdləşirəm.

...Səndən sonra elə bil ki, gözlərimin işığını itirmişəm. Səndən sonra sinəm üstə dərd çəkib, qəm bitirmişəm. Səndən sonra ürəyimə qar ələnib, sazaq düşüb, arzularım çiliklənib, sevinc məndən uzaq düşüb, üşüyürəm. Səndən sonra şaxta vurmuş qönçə kimi soluxmuşam. Sənsizliyim gecə-gündüz qəhər olub boğub məni, tənhalıqdan üşənirəm, qalx, yanına çağır məni. Ay insafsız, niyə getdin, niyə qoydun bu dünyada, axı ağlar günə məni?! Səndən sonra saçlarıma vaxtsız qırov düşüb, dözümüm yox, yaşamağa həvəsim yox, sənli keçən günlərimi qaytar geri. Harayıma özün yetiş, dərd əlindən qopar məni, ya sızlayan ürəyimə, məlhəm kimi gəlib yaxıl, ya da çəkib öz yanına, apar məni, apar məni!!!

...Müharibə başlayandan elə bil evimizin içinə dumançən çökmüşdü, hər gün şəhid xəbərləri gəlirdi, bir tərəfdən gedirdilər, bir yandan gəlirdilər, tanış -biliş, iş yoldaşlarının neçəsi şəhid olmuşdu, boğazımızdan çörək-su keçmirdi.

Axşamdan səhərə qədər heç nə demədi, yəqin düşünüb ki, bir gecəni də rahat yatam, amma səhərə qədər nigarançılıq içində keçirdik ikimiz də, nolub soruşdum, heç nə - dedi. Səhər işə gedən vaxtıydı, çağırış vərəqəsin göstərdi ki, bir azdan yola düşürəm bir həftəliyinə gedib gələcəm, narahat olma, arxada saxlayacaqlar bizi. Heç nə deyə bilmədim, özümü ayaq üstə güclə tutdum. Dedi, xəbər göndərmişəm, anam bacımla indilərdə kənddən gəlib çatarlar, qalacaqlar sənin yanında mən gələnə qədər. Balaca bir yır-yığış, yol çörəyi, dəyişik hazırladım birtəhər. Dedikləri bu idi ki, möhkəm ol, səbirli ol, hər şey ola bilər, müharibədir. Halım özümdə deyildi, qapıdan çıxanda qonşumuzun qapısın döyüb qızın göndərdi bizə ki, tək qalmayım, bizimkilər gəlib çatana qədər.

Elə o gedən oldu....özü gəlmədi, gətirdilər.




...Dava başlayandan içimdə bir nigarançılıq qıvrılırdı, xasiyyətin bilirdim ki, qeyrətli, vətənsevər, qürurlu idi, amma bu barədə danışmağı sevmirdi, imkan vermirdi söhbət açıb müharibədən danışaq. Bircə dəfə dedi ki, nə vaxt çağırsalar gedəcəm, özün bilirsən ki getməliyəm, qalan deyiləm, Vətən, torpaq hamınındır.

Axırıncı "46 bənövşə" kitabın oxumuşduq... "Bir adsız əsər var, onu məndən başqa heç kəs oxumayıb. O getdi, ətri otaqda qaldı..." Belə başlayırdı. Masanın üstündə sonra gördüm kitabın səhifələrinin arasına rənbərəng yarpaqlar, gül ləçəkləri düzüb. Axırındakı ağ vərəqlərin bir kənarında mənim adımın baş hərfin N-N-N, o biri qırağında öz adının S-S-S hərflərin səliqəynən yazıb, bu sözləri də təmiz xəttlə, əvvəl elə bildim kitablardan köçürüb, sonra baxdım ki hamısı öz sözləridir: "İnsan həyatını, həyatda getdiyi yolu sonu görünməyən, aqibəti bilinməyən dağ cığırına bənzətmək olar. Elə o cığırla da irəliləyirsən, bilməzsən o cığır səni hara aparıb çıxaracaq. Bu gedişdə daşlı-çınqıllı, sıldırım daş-qayadan da keçəssən, ayağında əziləcək, bu çətinliyə dözə bilməsən, həyatın faciə deyilən qapısı da üzünə açıla bilər, çətinliyə sinə gərib keçə bilsən, həyat səni öz füsunkar ağuşuna alıb, məst edə də bilər, mənim əzizim! Hər şeydə səbr lazımdır, səbr, inad, dözüm, mətanət! Yaxşı deyiblər, insanın həyatı güldür, açılar, solar. Kaş elə olaydı ki, hamı həyatın gül-çiçəkli, laləli-nərgizli cənnətməkan guşəsində yaşasın. Hər yanda mahnı, hər yanda ürək sevindirən, səni məst edən, səni qanadlarına alıb

göylərə qaldıran bir qüvvə ola - bu qüvvə yalnız məhəbbətdir, ey mənim ilk məhəbbətim! Səninlə bir yerdə olmaq nə qədər böyük xoşbəxtlikdi, bilirsənmi sevgilim?! Özünü gözlə, bu sözlərimi heç zaman unutma, özünü möhkəm saxla, başını dik tut, qəddini əymə, darıxma, səbirli ol, bil ki onda mən də rahat olacam, ey mənim ilk məhəbbətim, sevgilim, əlvida, ƏL–Vİ–DA !” Sabir Əhmədov.

Və sonra o biri ağ səhifələrdə bu sözlər, şeirlər:

*Torpaq nədi, verdin nədi, bircə qarış.*
*Əsgər nədi, səngər nədi, geri nədi?!*
*Vətən yoxsa, torpaq yoxsa, yaşamağın yeri nədi?!*
*Ulu Tanrım, sən şərəfli ölümlərə, öyrət məni,*
*Sonra, sonra torpağımın sabahında,*
*Öz qanımdan göyərt məni.*

*Bayraqları bayraq edən üstündəki qandır,*
*Torpaq-əgər uğrunda ölən varsa, Vətəndir.*

Torpaq Şəhid qanı ilə suvarılmasa, azadlıq ağacı bar verməz...

...Elə bil hər şeyi görürmüş, uçub qalxacağı Şəhidlik mərtəbəsinin ucalığını da mənə bildirirmiş.

Bir də çox sevdiyimiz bu şeiri tez-tez oxuyardı:

*Sevgisiz gül-çiçək bitməz, ey könül,*
*İnsan muradına yetməz, ey könül.*
*Nədəndir bilmirəm getməz, ey könül,*
*Başımdan sevdası ilk məhəbbətin...*

## Danışan fotolar ...




Şuşa


RASİM
ŞƏHİD


KAPİTAN
RƏŞAD
ƏMRALI OĞLU
ƏLİYEV
NEWS24.az
Yenilik.az












Sənin ayağındakı qaloşun palçığı
çoxlarının namusundan və
vicdanından
təmizdir.
MUSTAFAYEV
NİZAMİ
ABDULƏLİ OĞLU









**Məktəbində şəhadət olan bir milltətin, taleyində əsarət yoxdur!**










31 mart 1918
AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ


ŞƏHİDLƏRİN XATİRƏSİNƏ İTHAF OLUNUR
1990-cı il yanvarın 19-dan 20-na keçən gecə
Azərbaycan vətəndaşlarının dinc etiraz aksiyasını
dağıtmaq üçün Bakıya sovet ordusunun hissələri yeridildi.
20 YANVAR
147
700
800
ÖLƏNLƏRDƏN:
64 KİŞİ
20 QADIN
45 QOCA
18 UŞAQ








İlham və Fəridə: onun
bətnində 2 aylıq körpə varıydı...



UNUTMAYAQ!
XOCALI SOYQIRIMI
26.02.1992
QƏTLƏ YETİRİLƏNLƏR
613 nəfər
63 uşaq | 106 qadın | 70 yaşlı
YARALANANLAR
487 nəfər
o cümlədən 76 uşaq
GİROV DÜŞƏNLƏR
1275 nəfər
Xocalı soyqırımı - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə Azərbaycanın Xocalı şəhərini işğal edərkən, etnik azərbaycanlılara qarşı baş vermiş soyqırımdır.
İTKİN DÜŞƏNLƏR
150 nəfər
8 AİLƏ
TAMAMİLƏ MƏHV EDİLİB
25 UŞAQ
hər iki valideynini itirib
130 UŞAQ
bir valideynini itirib
HƏR ŞEY QARABAĞ ÜÇÜN!
"VİRTUAL QARABAĞ"
İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI MƏRKƏZİ




ERMƏNİ TERRORU
Dağlıq Qarabağ
Kəlbəcər
Laçın
Qubadlı
Zəngilan
Cabrayıl
Füzuli
Ağdam
1.000.000
insan qaçqın və məcburi köçkün oldu.
30.000
adam həlak oldu
600
məktəb
65
peşə məktəbi
700
səhiyyə ocağı
800
nəfərlik xəstəxana
DAĞIDILDI




ERMƏNİSTANIN MƏHV EDİLMİŞ VƏ QƏNİMƏT GÖTÜRÜLMÜŞ HƏRBİ TEXNİKASI
TANK 366 ədəd
SU-25 TƏYYARƏSİ 5 ədəd
SMERÇ 4 ədəd
QRAD 97 ədəd
URAQAN 2 ədəd
YARS TOS ODSAÇAN 1 ədəd
S-300 ZENİT-RAKET KOMPLEKSLƏRİ VƏ VASİTƏLƏRİ 10 ədəd
TOR, OSA, KUB, KRUQ, S-125, ŞİLKA ZENİT-RAKET KOMPLEKSLƏRİ 57 ədəd
PİLOTSUZ UÇUŞ APARATLARI 22 ədəd
ELBRUS ƏMƏLİYYAT-TAKTİKİ RAKET KOMPLEKSİ 2 ədəd
TOÇKA-U RAKET KOMPLEKSİ BALLİSTİK RAKET 2 ədəd
RADİOELEKTRON MÜBARİZƏ VASİTƏLƏRİ 5 ədəd
KOMANDA MƏNTƏQƏSİ 7 ədəd
SURSAT ANBARI 11 ədəd
TOS ODSAÇAN 1 ədəd
NEBO-M VƏ DİGƏR MÜXTƏLİF RADİOLOKASİYA STANSİYALARI 12 ədəd
OBORONA RADİOLOKASİYA STANSİYASI 1 ədəd
TANK ƏLEYHİNƏ VASİTƏLƏR 53 ədəd
MÜXTƏLİF ÇAPLI TOPLAR 352 ədəd
MİNAATANLAR, QUMBARAATAN 303 ədəd
ATICI SİLAHLAR 1380 ədəd
XÜSUSİ HƏRBİ AVTOMOBİLLƏR 753 ədəd
ZASTAVA 14 ədəd
AKASİYA, QVOZDİKA ÖZÜYERİYƏN ARTİLLERİYA QURĞULARI 33 ədəd
44 GÜNÜN NƏTİCƏLƏRİ ƏSASINDA ERMƏNİSTANA VURULMUŞ HƏRBİ ZƏRƏRİN DƏYƏRİ
3,8 MLRD $








Sentyabrın 27-dən oktyabrın 2-si saat 20.00-dək
Ermənistan silahlı qüvvələrinin ümumi itkiləri
TANK VƏ DİGƏR ZİREHLİ TEXNİKA
250
ARTİLLERİYA, YAYLIM ATƏŞLİ RAKET SİSTEMLƏRİ, MİNAATAN
AVTOMOBİL TEXNİKASI
HAVA HÜCUMUNDAN MÜDAFİƏ VASİTƏLƏRİ
KOMANDA-İDARƏETMƏ VƏ KOMANDA-MÜŞAHİDƏ MƏNTƏQƏSİ
7
SİLAH-SURSAT ANBARI
1
S-300






ŞOK! PUA'LAR QALDIRILDI
ERMƏNİ POSTU GECƏ İLƏ BELƏ MƏHV EDİLDİ!






Şəhidlər Ölməz,
Vətən Bölünməz!


VƏTƏN SEVGİSİ İLƏ
BİRLƏŞƏN MİLYONLARLA
KÖNÜLLÜNÜN GÜNÜ
Könüllü olaraq vətənə xidmətə hazır olan hər kəs bizim qəhrəmanımızdır. Hər birinizlə qürur duyuruq!


Aprel Şəhidləri




20.11.1991





Allah rəhmət eləsin !








# 2. Şəhidlərimizi tanıyaq və tanıdaq:
# Şərqi Zəngəzur elləri
# Cəbrayıl rayonu



**Kəlbalıyev Səyavuş Hümbət oğlu**



1987-ci il oktyabr ayının 16-da Cəbrayıl rayonunun Horovlu kəndində andan olub. İlk təhsilini Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsində fəaliyyət göstərən Şuşa şəhər 6 saylı tam orta məktəbində almış Səyavuş 2005-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2009-cu ildə Hərbi Məktəbi bitirdikdən sonra Respublikanın müxtəlif bölgələrində hərbiçi kimi xidmətini davam etdirmişdir. Cəbrayıl-Beyləqan rayonu üzrə kəşfiyyat idarəsinin rəisi idi. Vətənin bölünməzliyi və müstəqilliyi uğrunda gedən İkinci Qarabağ savaşında mayor Kəlbalıyev Səyavuş Hümbət oğlu 29 sentyabr 2020-ci il tarixdə Füzuli rayonu istiqamətindəki döyüşlərdə böyük qəhrəmanlıq göstərərək həlak olmuşdur. Peşəkar hərbiçi idi. Sabunçu rayonu Bakıxanov qəsəbəsindəki Şəhidlər məzarlığında dəfn edilmişdir. Ailəli idi, iki övladı yadigar qalıb. Mayor Səyavuş Kəlbalıyev ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, “Vətən uğrunda”, “İgidliyə görə” və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Hacıyev Fərid Təşkilat oğlu**



04 oktyabr 1989-cu ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub. 2006-cı ildə İ.Quliyev adına B.Mərcanlı kənd tam orta məktəbini bitirmişdir. Vətənə olan sevgisi onu hərbi xidməti bitirdikdən sonra yenidən hərbi xidmətə getməyə sövq edir. Azərbaycan Ordusunun müddətdən artıq xidmət edən hərbi

qulluqçusu kimi Vətənin bölünməzliyi və müstəqilliyi uğrunda gedən İkinci Qarabağ savaşında Hacıyev Fərid Təşkilat oğlu 28 sentyabr 2020-ci il tarixdə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək həlak olur. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış Şəhid məzarlığında dəfn edilmişdir. Ailəli idi, iki övladı yadigar qalıb. Peşəkar hərbiçi ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.




**Ataşov Asif Kərim oğlu**

10 aprel 2002-ci il tarixdə Abşeron rayonu, Xırdalan qəsəbəsində anadan olub. Əslən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan Asif 2008-ci ildə Xırdalan şəhər 2 nömrəli tam orta məktəbinin birinci sinfinə daxil olmuş, 2019-cu ildə həmin məktəbi bitirmişdir. 2020-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Xidməti borcunu ləyaqətlə yerinə yetirən igid əsgər Asif Ataşov Vətənin bölünməzliyi uğrunda gedən İkinci Qarabağ savaşında 01 oktyabr 2020-ci il tarixdə Tərtər rayonu Dəmirçilər kəndi istiqamətindəki döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Subay idi. Xırdalan şəhər Şəhidlər məzarlığında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə Ataşov Asif Kərim oğlu ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Ağdamın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Əliyev Ziyadxan İbrahim oğlu**



12 yanvar 1997-ci ildə Kürdəmir rayonunun Carlı kəndində anadan olub. Əslən Cəbrayıl rayonunun Soltanlı kəndindən olan Ziyadxan 2003-2011-ci illərdə Kürdəmir rayon Carlı kənd, 2012-2014-cü illərdə Qubadlı rayon Fərcan kənd tam orta məktəbində təhsil almışdır. 2014-2018-ci illərdə Azərbaycan Texniki Universitetində təhsilini davam etdirmiş, ali təhsilini başa vurduqdan sonra 2019-cu ilin oktyabr ayında həqiqi hərbi xidmətə yollanmışdır. 01 oktyabr 2020-ci il tarixdə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlamış Vətən müharibəsində Tərtər rayonunun Talış yüksəkliyi istiqamətində gedən döyüşlərdə tapşırığı yerini yetirərkən düşmənin snayper gülləsinə tuş gələrək Şəhidlik zirvəsinə ucalmışdır. Subay idi. Kürdəmir rayonunda dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əliyev Ziyadxan İbrahim oğlu ölümündən sonra “Vətən uğrunda”, "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

**Əlizadə Nicat Qorxmaz oğlu**



15 sentyabr 2001-ci ildə Sumqayıt şəhərində anadan olub. Əslən Cəbrayıl rayonunun Tinli kəndindən olan Nicat ilk təhsilini Sumqayıt şəhərində fəaliyyət göstərən Qubadlı rayon, Hal kənd tam orta məktəbində almışdır. 2016-cı ildə Biləsuvar rayonu ərazisində salınmış 11 saylı qəsəbədə fəaliyyət göstərən V.İsmayılov adına Çərəkən kənd tam orta məktəbinin ümumi orta təhsil pilləsini bitirərək Cəbrayıl rayon 131 nömrəli Peşə məktəbində təh-

silini davam etdirmişdir. Peşə təhsilini başa vurduqdan sonra 2019-cu il oktyabr ayının 2-də həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini Tərtər rayonunda atıcı, sanitar təlimatçı kimi yerinə yetirən Əlizadə Nicat 07 oktyabr 2020-ci il tarixdə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlamış Vətən müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Subay idi. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış Şəhid məzarlığında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əlizadə Nicat Qorxmaz oğlu ölümündən sonra "Vətən uğrunda","Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

**Şahvediyev Böyükağa Savalan oğlu**




15 iyun 1998-ci ildə Biləsuvar rayonunda anadan olub. 2004-cü ildə Biləsuvar rayonu, 5 saylı qəsəbədə fəaliyyət göstərən Cəbrayıl rayon 10 saylı tam orta məktəbin birinci sinfinə getmiş, 2015-ci ildə həmin məktəbi bitirmişdir. Elə həmin ildə də Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olub. 2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılıb. Xidməti borcunu ləyaqətlə yerinə yetirən igid əsgər Böyükağa Şahvediyev 08 oktyabr 2020-ci il tarixdə Füzuli, Cəbrayıl rayonları istiqamətindəki döyüşlər zamanı böyük şücaət göstərərək qəhrəmancasına Şəhid olmuşdur. Subay idi. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış Şəhid məzarlığında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Şahvediyev Böyükağa Savalan oğlu ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Rəhimov Zamin Vahid oğlu**



21 aprel 1988-ci ildə Cəbrayıl rayonunun Məzrə kəndində anadan olub. 2006-cı ildə Binəqədi rayonunda fəaliyyət göstərən Sirik kənd tam orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılmış, 2008-ci ildə hərbi xidmətini başa vurmuşdur. Şuşa Musiqi texnikumunun qarmon ifası üzrə müəllim ixtisasına yeyələnən Zamin Rəhimov 2013-cü ildən Cəbrayıl rayon, Mahmudlu kənd Uşaq Musiqi məktəbində qarmon müəllimi kimi fəaliyyət göstərirdi. 27 sentyabr 2020-ci il tarixdə başlayan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılan Z.Rəhimov 07 oktyabr 2020-ci il tarixdə Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə Şəhid olmuşdur. Ailəli idi, bir övladı var. Binəqədi rayonu, Biləcəri qəsəbəsində yerləşən qəbiristanlıqda dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Rəhimov Zamin Vahid oğlu ölümündən sonra “Vətən uğrunda”, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü"  medalları ilə təltif edilmişdir.

**Əsədov Səbuhi Azər oğlu**



19 yanvar 1999-cu ildə Bakı şəhəri Suraxanı rayonunda anadan olub. Əslən Cəbrayıl rayonunun Hasanlı kəndindən olan Səbuhi 2005-2016-cı illərdə Suraxanı rayonu 85 nömrəli tam orta məktəbində təhsil almışdır. 14 iyul 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidməti Mingəçevirdə keçirən Səbuhi Əsədov 27 sentyabr 2020-ci ildə  vətənin müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib. 10 oktyabr 2020-ci ildə Talış və Su-

qovuşan istiqamətindəki döyüşlərdə qəhrəmanlıq göstərərək Şəhid olub. Suraxanı rayonu Bülbülə qəsəbəsindəki şəhidlər məzarlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə Əsədov Səbuhi Azər oğlu ölümündən sonra "Vətən uğrunda", "Suqovuşannın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.



**Əzizov Elçin Əvəz oğlu**

30 mart 1985-ci ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində andan olub. İlk təhsilini doğulduğu kənddə alan Elçin məcburi köçkün düşdükdən sonra Xətai rayonunda fəaliyyət göstərən Zəngilan rayon 28 saylı tam orta məktəbdə təhsilini davam etdirmiş və 2002-ci ildə həmin məktəbi bitirərək Azərbaycan Texniki Universitetinə qəbul olunmuşdur. 2006-cı ildə universiteti bitirərək hərbi xidmətə yollanır. Hərbi xidmətini uğurla başa vurduqdan sonra 2007-2012-ci illərdə müxtəlif sahələrdə çalışmışdır. Hərbiyə olan böyük marağı onu 2012-ci ilin dekabr ayında Azərbaycan Respublikası Dövlət Sərhəd xidmətinə gətirib çıxarır. İşlədiyi müddət ərzində göstərdiyi yüksək səviyyəli xidmətə görə Elçin Əzizov dəfələrlə Fəxri fərman və medallarla təltif olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə O, 16 avqust 2018-ci il tarixdə "Hərbi xidmətlərə görə", 16 avqust 2019-cu il tarixdə "Vətən uğrunda" medalları, Dövlət Sərhəd Xidməti rəisinin əmrləri ilə 29 dekabr 2013-cü il tarixdə "Azərbaycan Respublikası Silahlı Qüvvələrin 95 illiyi" yubiley medalı, 03 dekabr 2014-cü ildə "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi" yubiley medalı, 18 avqust 2015-ci ildə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal,

14 avqust 2019-cu ildə "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" yubiley medalı ilə təltif olunmuşdur. Elçin Əzizov 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnən dördgünlük aprel döyüşlərində könüllü olaraq iştirak edir və böyük şücaət göstərir. 27 sentyabr 2020-ci il tarixdə başlamış İkinci Qarabağ savaşında Vətənin bölünməzliyi uğrunda gedən müharibədə böyük qəhrəmanlıq göstərərək, oktyabr ayının 13-də Cəbrayıl rayonunun Sarıcallı kəndi istiqamətindəki döyüşlərdə qəhrəmancasına Şəhid olmuşdur. İkinci Fəxri xiyabanda torpağa tapşırılmışdır. Ailəli idi, üç övladı var. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə baş leytenant Əzizov Elçin Əvəz oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**Hacıyev Ramid Nəriman oğlu**

11 fevral 1987-ci ildə Cəbrayıl rayonunun Mirək kəndində anadan olub. 1994-cü ildə Xətai rayon 48 saylı tam orta məktəbin 8-ci sinfini başa vurduqdan sonra C.Naxçıvanski adına hərbi məktəbə daxil olmuş, həmin məktəbi müvəffəqiyyətlə bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunmuşdur. Ramid Hacıyev ali hərbi məktəbi bitirdikdən sonra müxtəlif hərbi hissələrdə xidmət göstərmiş, Tabor komandiri olmuşdur. 2010-cu ildə leytenant, 2012-ci ildə baş leytenant, 2016-cı ildə kapitan, 2020-ci ildə mayor rütbəsi almışdır. Üç hərbi medal, çoxlu sayda fəxri fərmanla təltif olunmuşdur. Vətənin bölünməzliyi uğrunda gedən İkinci Qarabağ savaşında 18 oktyabr 2020-ci il tarixdə Talış kəndi istiqamətindəki döyüşlərdə qəhrəmancasına həlak olaraq

Şəhidlik zirvəsinə ucalmışdır. İkinci Fəxri xiyabanda torpağa tapşırılmışdır. Ailəli idi, üç övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə mayor Hacıyev Ramid Nəriman oğlu ölümündən sonra “Qarabağ” ordeni, "Suqovuşanın  azad olunmasına görə" və “Vətən uğrunda” medalları ilə təltif edilmişdir.



**İsmayılzadə Sevindik Ramil oğlu**

30 noyabr 1998-ci ildə Saatlı rayonda dünyaya gəlmişdir. Əslən Cəbrayıl rayonunun Soltanlı kəndindən olan Sevindik Qaradağ rayonunda yerləşən 49 saylı Füzuli rayon tam orta məktəbinin məzunu olmuşdur. S.İsmayılzadənin idmana çox böyük marağı olduğundan, bir çox idman növləri ilə məşğul olmuş və nailiyyətlər qazanmışdır. 24 İyul 2017-ci il tarixdə həqiqi hərbi xidmətə çağırılmışdır. Sumqayıt şəhərində yerləşən N sayılı hərbi hissədə and içmə mərasiminə qədər xidmət etmişdir. Daha sonra Bakı şəhərində yerləşən N sayılı hərbi hissədə Daxili Sərhəd Qoşunlarında kəşfiyyatçı kimi xidmətini davam etdirmişdir. O, burada olduğu müddətdə göstərdiyi yüksək xidmət nəticəsində fəxri fərmanla təltif edilmişdir. Hərbi xidmət göstərdiyi dövrdə Xüsusi Təyinat kursunda snayper təlimi alaraq kursu uğurla başa vurmuşdur. İkinci Qarabağ savaşı başlayan zaman Sevindik yenidən hərbi komissarlığa çağırılır, ehtiyac olduğu təqdirdə xəbər veriləcəyi bildirilsə də Sevindik təkidlə onu cəbhə bölgəsinə, həm də Cəbrayıla döyüşməyə aparılmasını komissardan istəyir və bu

istəyinə nail olur. Füzuli istiqamətində gedən döyüşlər zamanı əsgər yoldaşının yaralandığını görür və onu xilas etmək istəyir. Elə həmin vaxt düşmən snayperi ilə amansızcasına vurulur. 19 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış Şəhid məzarlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə İsmayılzadə Sevindik Ramil oğlu ölümündən sonra “Vətən uğrunda”, "Xocavəndin azad olunmasına görə","Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Əmirov Anar Allahverdi oğlu**



29 dekabr 2000-ci ildə Sabirabad rayonu, Bulaqlı kəndində anadan olub. Əslən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan Anar 2018-ci ildə Sabirabad rayonu Şəhriyar qəsəbəsində fəaliyyət göstərən Cəbrayıl rayon 12 saylı tam orta məktəbini bitirmişdir. 2019-cu ilin yanvar ayında həqiqi hərbi xidmətə çağırılmışdır. Cəlilabad rayonu N saylı hərbi hissədə xidmətini başa vurduqdan sonra orada qalıb müddətdən artıq xidmət etməyə qərar vermişdir. 15 oktyabr 2020-ci il tarixdə Respublikamızın ərazi bütövlüyü uğrunda gedən İkinci Qarabağ savaşında Zəngilan rayonu istiqamətindəki döyüşlər zamanı qəhrəmancasına döyüşərək Şəhid olmuşdur. Füzuli rayonu Qazaxlar kənd məzarlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əmirov Anar Allahverdi oğlu ölümündən sonra “Vətən uğrunda”,"Füzulinin azad olunmasına görə", "Xocavındin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

**Xəlilov Ruhin Müzəffər oğlu**



13 mart 1987-ci ildə Cəbrayıl rayonunun Məzrə kəndində anadan olub. İlk təhsilini Səbail rayon 203 saylı orta məktəbdə almışdır. Abşeron rayon 1 saylı tam orta məktəbini bitirdikdən sonra 2005- 2009-cü illərdə "Asiya" Universitetinin Hüquq fakültəsində ali təhsil almışdır. 2009-2010-cu illərdə hərbi xidmətdə olub. Ruhin Xəlilov Ədliyyə Nazirliyinin İcra Baş idarəsində məsləhətçi vəzifəsində çalışırdı. Birinci dərəcəli dövlət qulluqçusu, ədliyyə kapitanı idi. Ailəli idi, üç övladı var. İkinci Qarabağ savaşı başlayan gündən könüllü olaraq Cəbrayıl rayon Hərbi Komissarlığına müraciət edir və qısa bir zamanda cəbhəyə yollanır. 21 oktyabr 2020-ci ildə Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 2-ci fəxri xiyabanda dəfn edilmişdir. Torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə"medalları ilə təltif edilmişdir. Eyni zamanda, Ədliyyə Naziri Fikrət Məmmədov tərəfindən İcra Baş İdarəsinin "Fəxri Ədliyyə İşçisi" adı verilmişdir.

**Paşayev Elsevər Vaqif oğlu**



1988-ci il iyul ayının 1-də Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olub. 1994-cü ildə Cəbrayıl rayon 21 saylı ümumi orta məktəbin 1-ci sinfinə daxil olub, 2003-cü ildə həmin məktəbin ümumi orta

təhsil pilləsini bitirmişdir. 2003-2006-cı illərdə təhsilini C.Naxçıvanski adına hərbi liseydə davam etdirmişdir. 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbinə daxil olmuş və 2010-cu ildə həmin məktəbi moto-atıcı ixtisası üzrə bitirmişdir. 2011-2013-cü illərdə N saylı hərbi hissədə taqım komandiri, 2013-2018-ci illərdə taqım komandiri – bölük komandiri vəzifələrində xidmət etmişdir. Qəlbi vətən eşqi ilə döyünən Elsevər sanki hərbiçi doğulmuşdur. Çox savadlı idi. Beş xarici dil bilirdi. Xarici ölkələrdə xarici hərbiçilərə hərbi təlimlər keçmişdir. Əfqanıstanda Azərbaycandan gedən Sülhməramlıların komandiri olmuşdur. 2014-cü ildə NATO təlimində iştirak üçün Bolqarıstanda, 2015-ci ildə snayper atıcı kursunda iştirak etmək üçün Türkiyə Respublikasında, 2019-cu il Böyük Britaniya krallığında, Çexiyada, Almaniyada və 2019-cu ilin dekabrın 11-dən 2020-ci ilin iyulun 1-nə kimi Əfqanıstanda təlimlərdə iştirak edib. Vətənin bölünməzliyi uğrunda gedən İkinci Qarabağ savaşında 400-ə yaxın əsgərimizi mühasirədən çıxaran E.Paşayev Xudafərin körpüsünə Azərbaycan bayrağını sancmışdır. 25 oktyabr 2020-ci il tarixdə Qubadlı rayonunun azadlığı uğrundakı döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 2-ci fəxri xiyabanda dəfn edilmişdir. Ailəlidir, iki övladı var. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə mayor Paşayev Elsevər Vaqif oğlu ölümündən sonra “Qarabağ” ordeni, "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına görə", “Qubadlının azad olunmasına görə” medalları ilə də təltif edilmişdir.



**İsmayılzadə Vaqif Vüqar oğlu**

1996-cı ildə Beyləqan rayonunun Şahsevən kəndində anadan olub. Əslən Cəbrayıl rayonunun Horovlu kəndindən olan Vaqif 2014-cü ildə F.Miriyev adına Araz qəsəbə tam orta məktəbini bitirmişdir. 2016-cı ildə hərbi xidmətə getmiş, 2017-ci ildə hərbi xidməti başa vurmuşdur. Həmin ilin noyabr ayında Azərbaycanın Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində işə başlamışdır. Hərbi polis idi və işini çox sevirdi. Hər kəsin qəhrəmanına çevrilən Vaqif İsmayılzadə Vətənin bölünməzliyi uğrunda gedən İkinci Qarabağ savaşında 20 oktyabr 2020-ci il tarixdə Füzuli rayonunun azadlığı uğrundakı döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Əsgər yoldaşlarını neytral ərazidən çıxaran Vaqifin öz nəşi üç gün neytral ərazidə qalır. 25 oktyabrda ailəsinə şəhidlik xəbəri verilir. 26 oktyabrda Beyləqan rayon məzarlığında dəfn edilmişdir. Ailəli idi, iki övladı var. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə İsmayılzadə Vaqif Vüqar oğlu ölümündən sonra "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**Həmidzadə Hüseyn Akif oğlu**

1995-ci il oktyabr ayının 15-də Bakı şəhərində anadan olub. 2013-cü ildə Xırdalan şəhəri 1 nömrəli tam orta məktəbini bitirmişdir. 2014-2018-ci illərdə Kooperasiya Universitetinin iqtisadiyyat fakültəsində ali təhsil almışdır. 2018-ci ildə Murovdağ zirvəsində həqiqi hərbi hissədə xidmətdə olmuşdur. 27 sentyabr 2020-ci ildə başlamış Vətən müharibəsi zamanı Vətənə olan bağlılığı, düşmənə olan nifrəti onu sakit dayanmağa qoymur və könüllü

olaraq Cəbrayıl rayon Komissarlığına yazılaraq, qısa müddət ərzində ön cəbhəyə yollanır. Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının işğaldan azad edilməsində misli görünməmiş qəhrəmanlıq göstərir, düşmənin çox sayda tankını, ağır texnikasını sıradan çıxarır. 25 oktyabrda Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı ağır yaralanan Hüseyn 01 noyabr 2020-ci ildə qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Şəki rayonunun Oxut kənd məzarlığında dəfn olunub. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Həmidzadə Hüseyn Akif oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**Süleymanov Əyyub Rasim oğlu**

09 aprel 2001-ci ildə İmişli rayonunda anadan olub. Əslən Cəbrayıl rayonunun Qumlaq kəndindən olan Əyyub 2007-2016-cı illərdə Biləsuvar rayonu ərazisində salınmış, 7 saylı qəsəbədə fəaliyyət göstərən İ.Tahirov adına Mehdili kənd tam orta məktəbində 9 illik təhsil almışdır. 2016-2018-ci illərdə Cəbrayıl rayon 131 nömrəli Texniki Peşə məktəbində təhsilini davam etdirərək elektrik avadanlıqlarının təmiri üzrə elektrik montyoru ixtisasına yiyələnmişdir. Peşə təhsilini başa vurduqdan sonra 2019-cu ilin aprel ayında həqiqi hərbi xidmətə çağırıb. Hərbi xidmətini ləyaqətlə yerinə yetirən igid əsgər Vətənin bölünməzliyi uğrunda gedən İkinci Qarabağ savaşında 01 noyabr 2020-ci il tarixdə Laçın rayonu istiqamətindəki döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış Şəhid məzarlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası

Prezidentinin Sərəncamları ilə Süleymanov Əyyub Rasim oğlu ölümündən sonra "Cəbrayılın azad olunmasına görə”, "Qubadlının azad olunmasına görə", “Laçının azad olunmasına görə”, “Hərbi xidmətlərə görə” və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.



**Mustafayev Təhmasib Sərməst**

30 avqust 1989-cu ildə Cəbrayıl rayonunun Hasanlı kəndində anadan olub. 1996-2007-ci illərdə Kürdəmir rayon Vahid Əhmədov adına Topal Həsənli tam orta məktəbində təhsil almışdır. 2008-2009-cu illərdə Naxçıvanda yerləşən Daxili Qoşunların N saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçmişdir. 2010-cu ilin aprel ayından etibarən N saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunda dəzgahlı qumbaraatanın heyət komandiri olaraq yenidən ordu sıralarına qoşulmuşdur. 2011-ci ildə Türkiyədə xüsusi təyinatlı dəstədə 6 aylıq təlim keçmişdir. 2012-2014-cu illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Orta İxtisas Hərbi Məktəbinin “Daxili Qoşunlarda taktiki komandanlıq” ixtisasını bitirərək leytenant hərbi rütbəsində xidmətini davam etdirmişdir. 2018-ci ildə xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun komandiri vəzifəsinə təyinat almışdır. Xidməti dövründə “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medala layiq görülmüşdür. Vətənin bölünməzliyi uğrunda gedən İkinci Qarabağ savaşında döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən 07 noyabr 2020-ci il tarixində Şuşa istiqamətindəki döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış Şəhid məzarlığında dəfn edilmiş-

dir. Ailəli idi, bir övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə baş leytenant Mustafayev Təhmasib Sərməst oğlu ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**Bayramlı Tural Ədil oğlu**

10 fevral 1996-cı ildə Beyləqan rayonunun Şərq qəsəbəsində anadan olub. Əslən Cəbrayıl rayonunun Daş Veysəlli kəndindən olan Tural 2003-2014-cü illərdə Cəbrayıl rayon Dağtumas kənd tam orta məktəbində təhsil almışdır. 2014-cü ildə həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı ildə hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hacıqabul şəhərində yerləşən N saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq xidmət etməyə başlayıb. Daxili Qoşunların Xüsusi Təyinatlı baş çavuşu olub. T.Bayramlı 10 noyabr 2020-ci il tarixdə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olmuşdur. Beyləqan rayon məzarlığında (Cərcis Peyğəmbər) dəfn olunub. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Bayramlı Tural Ədil oğlu ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Rüstəmov Vüsal Valeh oğlu**



12 mart 1993-cü ildə Cəbrayıl rayonunun Alıkeyxalı kəndində anadan olub. Məcburi köçkün düşdükdən sonra ailəsi əvvəlcə Şirvan şəhərində, 1995-ci ildən isə Yasamal rayonunda məskunlaşıb. 2010-cu ildə Yasamal rayon 53 saylı tam orta məktəbin məzunu olmuşdur. 2011-ci ilin aprel ayından 2013-cü ilin oktyabr ayınadək həqiqi hərbi xidmət keçmişdir. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət Binəqədi neft şirkətinin mühafizə xidmətində çalışmışdır. Cəbrayıl rayonu işğal olunduğu zaman Vüsal 6 aylıq körpə idi. O, doğma el-obasını görməsə də, ailəsindən eşitdikləri onda vətənə çox böyük məhəbbət yaratdığından yenidən ordu sıralarına qatılmaq qərarına gəlir. 2019-cu ildə Azərbaycan Respublikasının quru qoşunlarında gizirlik kursunu bitirərək, N saylı hərbi hissənin tağım komandiri vəzifəsinə təyinat alır. Daha sonra xidmətini Goranboy, Mingəçevir rayonlarında yerləşən hərbi hissələrdə davam etdirir. 27 Sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində Füzuli, Qubadlı, Zəngilan rayonlarının işğaldan azad edilməsində böyük şücaət göstərmişdir. 10 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Binəqədi rayon Sulutəpə qəsəbəsində yerləşən məzarlıqda dəfn olunmuşdur. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə gizir Rüstəmov Vüsal Valeh oğlu ölümündən sonra “Vətən uğrunda”, "Şuşanın azad olunmasına görə","Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**İsmayılov Emin Tahir oğlu**



21 may 2001-ci ildə Bakı şəhəri, Nəsimi rayonunda anadan olub. Əslən Cəbrayıl rayonundan olan Emin Nəsimi rayon 54 saylı tam orta məktəbin məzunu olmuşdur. Peşəkar idmanla məşğul olurdu. 2019-cu ilin iyun ayında həqiqi hərbi xidmətə yollanmışdır. Goranboy rayonunda hərbi xidmətdə olduğu vaxtda Vətən müharibəsi başlanmış, Emin torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarında yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərərək 06 oktyabr 2020-ci il tarixdə Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 2-ci Fəxri xiyabanda dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə İsmayılov Emin Tahir oğlu ölümündən sonra “Vətən uğrunda” və "Suqovuşanın azad olunmasına görə"və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

**Cavadov Mahmud Heydər oğlu**



13 aprel 1999-cu ildə, Bakı şəhərində anadan olub. Əslən Cəbrayıl şəhərdən olan M.Cavadov 2005-2016-cı illərdə Yasamal rayon, A.Ağaverdiyev adına 31 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2016-2020-ci illərdə Azərbaycan Texniki Universitetində ali təhsilə yiyələnmişdir. 2020-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini Goranboy rayonunda keçirmişdir. İkinci Qarabağ savaşında Vətənin bölünməzliyi uğrunda döyüşlərdə böyük şücaət göstərən

M.Cavadov 27 noyabr 2020-ci il tarixdə Ağdərə istiqamətində qəhrəmancasına Şəhid olmuşdur. İkinci Fəxri Xiyabanda dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Cavadov Mahmud Heydər oğlu ölümündən sonra “Vətən uğrunda”, "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**Hüseynov Elxan Maarif oğlu**

12 mart 2000-ci ildə Qaradağ rayonunda anadan olub.O, 12 mart 2000-ci ildə Qaradağ rayonunda anadan olub. Əslən Cəbrayıl rayonunun Daşkəsən kəndindən olan Elxan ilk təhsilini Xanış Rüstəmov adına Böyük Mərcanlı kənd tam orta məktəbdə almış, 2015-ci ildə həmin məktəbin IX sinfini bitirərək ümumi orta təhsil almışdır. 2018-2019-cu illərdə həqiqi hərbi xidmətə olub. Hərbi xidməti bitirdikdən sonra xüsusi təyinatlılarda müddətli hərbi xidmətini davam etdirmişdir. 27 sentyabr 2020-ci ildə başlamış Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında böyük rəşadət göstərmişdir. Baş kəşfiyyatçı idi. Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Laçın istiqamətlərdə gedən döyüşlərdə qəhrəmanlıqla vuruşmuşdur. Şuşa istiqamətində gedən döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkən baş nahiyəsindən güllə yarası alır. Xəstəxanaya aparılarkən TTY maşını minaya düşür və möcüzə nəticəsində həyatda qalır. Bir aydan çox komada olan Elxanı həkimlərin səyinə baxmayaraq həyata qaytarmaq mümkün olmur. 13 dekabr 2020-ci ildə şəhidlik zirvəsinə ucalır. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbədə salınmış Şəhid məzarlığında dəfn edilmişdir. Subay idi. Azər-

baycan Respublikası Prezidentinin Sərəncamları ilə Hüseynov Elxan Maarif oğlu ölümündən sonra “Vətən uğrunda", Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə ", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**Quliyev Asim Bəkir oğlu**

1996-cı il martın 2-də Bakı şəhərində anadan olub. Əslən Cəbrayıl rayonunun Hovuslu kəndindən olan Asim 2002–2011-ci illərdə Bakıxanov qəsəbəsindəki 107 saylı tam orta məktəbdə, 2011–2013-cü illərdə Sumqayıt şəhərində kompüter ixtisası üzrə kollecdə təhsil alıb. Orta məktəbdə oxuyarkən idmana həvəsi böyük olduğundan boksla məşğul olub. Bakı üzrə keçirilən yarışlarda 1-ci, Respublika üzrə keçirilən yarışlarda 2-ci yeri qazanıb. Asim Quliyev 2015–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmətdə olub. Xidməti dövründə 2016-cı ilin Aprel döyüşlərində pulemyotçu və kəşfiyyatçı kimi iştirak etmişdir. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq vuruşmuşdur. Asim Quliyev oktyabrın 11-də Hadrut döyüşləri zamanı snayper gülləsinə tuş gələrək şəhid olub. Bakıxanov qəsəbəsindəki Şəhidlər məzarlığında dəfn edilib. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə

Quliyev Asim Bəkir oğlu ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**Məmmədov Anar Kərəm oğlu**

1984-cü il iyun ayının 7-də Bakıda anadan olub. Əslən Cəbrayıl rayonunun Dağtumas kəndindən olan Anar Binəqədi rayonundakı Azər Məmmədov adına 115 saylı orta məktəbdə təhsil alıb. 2003-cü ildə orta məktəbi bitirərək Tibb Universitetinə daxil olub. Hərbi həkim olmaq arzusunda olan Anar 2006-cı ildə öz istəyi ilə təhsilini hərbi tibb fakültəsində davam etdirmişdir. 2008-ci ildə hərbi-tibb təhsilini başa vuraraq, baş leytenant kimi Şəmkir korpusunda həkimlik fəaliyyətinə başlamışdır. 2009-2013-cü illərdə Füzuli rayonunda xidmət etmiş, daha sonra isə Cəlilabad korpusunda işləmişdir. Elə oradan da Əfqanıstana ezam edilərək 6 ay sülhməramlı taborda hərbi həkim kimi xidmət etmişdir. Anar Məmmədov Əfqanıstandan qayıtdıqdan sonra Ağcabədi, Beyləqan, Qusar korpuslarında, 2018-ci ildən isə tibbi xidmət kapitanı kimi Bakı şəhərində Pirəküşkül hərbi hissəsində xidmətini davam etdirmişdir. 2016-cı ildə Lələtəpə döyüşlərində iştirak edərək xidməti ləyaqət və sədaqət göstərmişdir. Azərbaycan Ordusunun tibb xidməti kapitanı olan Anar Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Xocavəndin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçiləri döyüş meydanından çıxararaq hərbi qulluq vəzifəsini ləyaqət-

lə yerinə yetirmişdir. Noyabrın 3-də Qubadlı döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən Məmmədov Anar Kərəm oğlu ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Nəsirov İlyas Arzuman oğlu**



1985-ci il iyul ayının 4-də Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olub. Əslən Cəbrayıl rayonunun Süleymanlı kəndindəndir. 1992-ci ildə Vilayət Cəfərov adına Milabad kənd orta məktəbinə getmiş, 2002-ci ildə orta məktəbi bitirərək həqiqi hərbi xidmətə çağırılmışdır. Uşaq yaşlarından hərbiyə böyük həvəsi olan İlyas hərbi xidmətdə olarkən intizamı, səliqə-sahmanı ilə seçilmişdir. Hərbi hissənin kəşfiyyatçı bölümündə xidmət edib. 2007-ci ildən müxtəlif hərbi yönümlü kurslarda kəşfiyyatçılığın sirlərinə yeyələnib, bu sahədə fəaliyyətini uğurla davam etdirmişdir. Xidmət etdiyi illərdə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" , "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" , "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, III dərəcəli "Qüsursuz xidmətə görə" , "İgidliyə görə"_medalları ilə təltif olunmuşdur. İlyas Nəsirov 2016-cı ilin Aprel döyüşlərində də iştirak etmişdir. Aprel döyüşlərindən sonra İlyas NATO-nun xüsusi təyinatlı kurslarında təlim keçmişdir. Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən

müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 21-də Qubadlı döyüşləri zamanı şəhid olub. Beyləqan rayonu Milabad kənd qəbiristanlığında dəfn edilmişdir. Ailəli idi, üç övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**Hüseynov Məhəmməd Alik oğlu**

1993-cü il oktyabrın 28-də Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olub. Əslən Cəbrayıl rayonunun Horovlu kəndindəndir. Məhəmməd Hüseynov Sərdar İmrəliyev adına Bahar kənd orta məktəbini bitirdikdən sonra Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi təyinatlı dəstəsində (XTD) həqiqi hərbi xidmət keçmişdir. Hərbi xidməti başa vurduqdan sonra könüllü olaraq müddətdən artıq hərbi qulluqçu kimi xidmətini davam etdirmişdir. Xidmət etdiyi müddət ərzində xüsusi kurslardan keçmişdir. Bir sıra döyüş və kəşfiyyat əməliyyatlarında iştirak etmiş, 2016-cı il aprel döyüşlərində fərqlənərək komandanlığın təşəkkür və təriflərini qazanmışdır. Baş çavuş olan Məhəmməd Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı oktyabr ayının 8-də şəhidlik zirvəsinə ucalıb. Beyləqan rayonunun Bahar qəsəbəsindəki qəbiristanlıqda dəfn

olunub. Ailəli idi. Bir övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə Məhəmməd Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Hüseynli Şahin Vaqif oğlu**



1995-ci il mayın 4-də Beyləqan şəhərində anadan olub. Əslən Cəbrayıl rayonunun Süleymanlı kəndindən olan Şahin 2002-2013-cü illərdə Beyləqan şəhərində R.Abbasov adına 4 nömrəli tam orta məktəbdə təhsil alıb. 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidməti bitirdikdən sonra 2016-cı ildə yenidən vətənə xidmət etmək arzusu ilə tankçı hazırlayan kursda oxuyub. Azərbaycan Ordusunun kiçik çavuşu olan Şahin Hüseynli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Sentyabr ayının 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan şəhərində dəfn olunub. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə Şahin Hüseynli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", “III dərəcəli hərbi xidmətə görə”, “Cəsur döyüşçü” medalları ilə təltif edilmişdir.

**Mirzəyev Elyar Cəlal oğlu**



1984-cü il sentyabrın 6-da Beyləqan rayonunun Bahar qəsəbəsində dünyaya gəlib. Əslən Cəbrayıl rayonunun Horovlu kəndindəndir. O, 1990-cı ildə Sərdar İmrəliyev adına Bahar tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2001-ci ildə həmin məktəbi bitirib. Uşaqlıqdan futbola xüsusi marağı və həvəsi olan Elyar oxuduğu illər ərzində Bahar futbol komandasında çıxış edərkən kapitanı olduğu komanda məktəblilər arasında keçirilən çempionatlarda birincilik qazanıb. Elyar artıq professional futbolçu kimi tək Beyləqanda yox, ölkə futbolunda da tanınan sima idi. 2002-ci ilin oktyabr ayında Beyləqan rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Elyar Ədliyyə Nazirliyinin Penitensiar xidmətində hərbi xidmətdə olub. 2016-cı ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verir. Kursu uğurla bitirən Elyar Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissənin "Həmlə" taborunda pulemyotçu kimi xidmətə başlayıb. Elyar qısa müddət ərzində peşəkar hərbçi kimi formalaşır, dəfələrlə fəxri fərman və təşəkkürnamələr ilə təltif olunur. 2020-ci ilin 27 sentyabrından başlayan Vətən müharibəsində Elyarın döyüş yolu cəbhənin Füzuli istiqamətindən başlayır. Təmsil etdiyi "Həmlə" taborunun tərkibində döyüşlərə qatılan Elyar elə ilk günlərdən xüsusi qəhrəmanlığı ilə fərqlənir. O, müharibənin birinci günündə düşmənin illərlə möhkəmləndiyi "Ohanyan" xətti adlandırılan istehkamı keçib, bir neçə kəndin işğaldan azad edilməsində iştirak edir. Füzuli, Cəbrayıl və Ağoğlan (Hadrut) istiqamətində gedən döyüşlərin fəal iştirakçısı olan Elyar pulemyotçu kimi işinin öhdəsindən peşəkarlıqla gəlir. O, dəfələrlə özünü təhlükəyə ataraq, döyüş anında atəş altında

qalan yaralı yoldaşlarını qorxmadan, igidcəsinə xilas edib. Daim düşmənin hədəfində olan qəhrəman pulemyotçumuz oktyabrın 14-də səhər saatlarında Ağoğlan istiqamətində yerləşən Şaban dağının ətəklərində başlayan açıq döyüşdə snayper gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. Elyar oktyabrın 16-da Bahar qəsəbəsində dəfn edilib. Ailəli idi, 2 övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Hüseynov Ruslan Vəli oğlu**

1988-ci il may ayının 10-da Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olub. Əslən Cəbrayıl rayonun Horovlu kəndindəndir. 2006-cı ildə bahar qəsəbəsindəki orta məktəbi bitirdikdən sonra 2007-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətini başa vuran Ruslan 2013-cü ildə hərbi vəzifəsini davam etdirmək üçün kursa qəbul olunub. Kursu uğurla başa vuraraq 2014-cü ildə kəşfiyyatçı kimi xidmətə başlamışdır. Xidməti dövründə fəxri fərman və mükafatlara layiq görülmüşdür. 2016-cı ildə aprel döyüşlərinin ən fəal iştirakçısı olmuş, öndə gedən kəşfiyyatçı kimi öz missiyasını şərəflə yerinə yetirmişdir. Azərbaycan Ordusunun kiçik çavuşu olan Ruslan Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Xocavənd, Zəngilan və Qubadlının işğaldan azad edilməsində xüsusi qəhrəmanlıq göstərmişdir. Ruslan

Hüseynov noyabrın 1-də Xocavənd döyüşləri zamanı Qırmızıbazar istiqamətində gedən döyüşlərdə şəhid olub. Beyləqan rayonu, Bahar qəsəbəsində dəfn olunub. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilmişdir.



**Quliyev Hətəmxan Məti oğlu**

1990-cı il mart ayının 24-də Sumqayıt şəhərində anadan olub. Əslən Cəbrayıl rayonunun Horovlu kəndindəndir. 1997-2006-cı illərdə Sumqayıt şəhərində 4 saylı tam orta məktəbdə, 2006-2008-ci illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2008-2012-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsilini davam etdirib. Hətəmxan Quliyev 2012-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. 2016-cı ilin Aprel döyüşlərinin fəal iştirakçısı olub. Bir müddət Mingəçevir şəhərindəki hərbi hissədə tabor komandirinin müavini, daha sonra isə qərargah rəisi vəzifəsində çalışmışdır. 2019-cu ildə öz istəyi ilə təyinatını Tərtər rayonunda yerləşən hərbi hissəyə almışdır. Azərbaycan Ordusunun kapitanı olan Hətəmxan Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabr ayının 29-da Suqovuşan

döyüşləri zamanı şəhid olub. Noyabrın 24-də II Fəxri Xiyabanda dəfn olunub. Ailəli idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



**Budaqov Rəşad Ramiz oğlu**

1986-cı il martın 13-də Yevlax şəhərində anadan olub. Əslən Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndindəndir. 1993-2004-cü illərdə doğulduğu şəhərdəki 4 saylı məktəbdə oxuyub. 2004-cü ildə Heydər Əliyev adına Ali hərbi məktəbə daxil olmuş, 2008-ci ildə ali təhsilli tankçı zabit qismində Azərbaycan ordusunda leytenant rütbəsi ilə tağım komandiri kimi xidmətə başlamışdır. Sonrakı illərdə bölük komandiri, taborun qərargah rəisi, tabor komandiri, Yevlaxdakı N saylı hərbi hissədə briqada komandirinin maddi texniki təminat üzrə müavini vəzifələrində çalışmış, mayor rütbəsinə qədər yüksəlmişdir. Xidməti vəzifəsi ilə əlaqədar müxtəlif vaxtlarda cəbhənin ayrı-ayrı istiqamətlərində - Füzuli, Ağcabədi, Bərdə və Goranboy rayonlarında əsgər və zabitlərlə birgə fəaliyyət göstərmişdir. 2016-cı ildə Ağdam istiqamətində gedən döyüşlərdə düşmənin hərbi texnikalarının sıradan çıxarılmasında qəhrəmanlıq göstərmişdir. Milli orduda xidmət etdiyi illərdə “Hərbi xidmətdə fərqlənməyə görə”, “Qüsursuz xidmətə görə”, “Azərbaycan silahlı qüvvələrinin 90 illiyi”, “Azərbaycan silahlı qüvvələrinin 95 illiyi”, “Azərbaycan silahlı qüvvələrinin 100 illiyi” medalları ilə təltif olunmuşdur. Azərbaycan Ordusunun mayoru olan Rəşad Budaqov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün

başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Sentyabr ayının 28-də Talış kəndi və Suqovuşanın yaxınlığındakı yüksəkliklər uğrunda gedən döyüşlər zamanı şəhid olub. Yevlaxdakı Şəhidlər Xiyabanında dəfn olunub. Ailəli idi. 2 qız övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" medalı və "Rəşadət" ordeni ilə təltif edilmişdir.

**Süleymanov Abdulla Telman oğlu**




Dövlət Sərhəd Xidmətinə məxsus hərbi helikopterin Xızı rayonu ərazisində təlim uçuşlarını yerinə yetirərkən qəzaya uğraması nəticəsində şəhid olan hərbçimiz leytenant Süleymanov Abdulla Telman oğlu 28 iyun 1999-cu ildə Bakı şəhərində anadan olub. Əslən Cəbrayıl rayonunun Çərəkən kəndindən olan Abdulla ailəsi ilə birlikdə Bakı şəhəri, Memarlıq və İnşaat Universitetinin 2 saylı yataqxanasında məskunlaşıb. 2005-ci ildə M.Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2015-ci ildə Aşıq Dirili Qurbani adına Soltanlı kənd tam orta məktəbini bitirib. Orta təhsilini tamamladıqdan sonra Dövlət Sərhəd Xidməti Akademiyasına daxil olub, 2020-ci ildə həmin akademiyada Aviasiya ixtisası üzrə təhsilini başa vurub. Təhsilini tamamladıqdan sonra Səngəçalda yerləşən hərbi hissədə leytenant kimi fəaliyyətə başlayıb. 44 günlük Vətən müharibəsində Qubadlı və Zəngilanın rayonlarının azad olunması uğrunda döyüşlərdə fəal iştirak etmiş, xidmətlərinə görə diplomla təltif edilmişdir. 30 noyabr

2021-ci il tarixdə "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən helikopterin qəzaya uğraması nəticəsində şəhid olmuşdur. Bakı şəhəri ikinci Fəxri Xiyabanda dəfn olunub. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra Süleymanov Abdulla Telman oğlu "Hərbi Xidmətdə Fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.[1]




[1] http://www.cabrail-ih.gov.az/page/73.html

## Laçın rayonu






**Rəhimli Türal Gəray oğlu**

Laçın rayonunun Korcabulaq kənd sakini şəhid Rəhimli Türal Gəray oğlu 27 oktyabr 2001-ci ildə Abşeron rayonunun Xırdalan şəhərində anadan olmuşdur. 01 sentyabr 2008-cı ildə Laçın rayonu 45 saylı tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2019-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Rəhimli Tü-

ral Gəray oğlu 2019-cu ilin oktyabr ayında həqiqi hərbi xidmətə yola düşmüşdür..

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman Rəhimli Türal Gəray oğlu hərbiçi olaraq torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Tərtər rayonunun Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 01 oktyabr 2020-ci il tarixdə Tərtər rayonunun Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 02 oktyabr 2020-ci il tarixdə Abşeron rayonu Sulutəpə qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı, "Suqovuşanın azad olunmasına görə" medalı və "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**Həmidov Pərvin Azər oğlu**



Laçın rayonunun Qarabəyli kənd sakini şəhid Həmidov Pərvin Azər oğlu 8 mart 1994-cü ildə Yevlax rayonunun Bəydili kəndində anadan olmuşdur. 1 sentyabr 1999-cı ildə Yevlax rayonu Xaldan kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2006-ci ildən Mingəçevir şəhərində 25 saylı Kəlbəcər rayon tam orta məktəbdə oxumuş, 2012-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Həmidov Pərvin Azər oğlu 2012-ci ildə həqiqi hərbi xidmətə yola düşmüş, 2014-cü hərbi xidmətdən ehtiyata buraxılmışdır. 2020-ci ilin yanvar ayından müddətdən artıq hərbi qulluqçu kimi Azərbaycan ordusunda xidmət etmişdir. 27 sentyabr 2020-ci il tarixdə

Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman Həmidov Pərvin Azər oğlu hərbiçi olaraq torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Tərtər rayonunun Suqovuşanın qəsəbəsinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1 oktyabr 2020-ci il tarixdə Tərtər rayonunun Suqovuşanın qəsəbəsinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 2 oktyabr 2020-ci il tarixdə Mingəçevir şəhərində Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı, "Cəsur döyüşçü" medalı, "Suqovuşanın azad olunmasına görə" medalı və "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**Əliyev Nihad Heydər oğlu**



Laçın rayonunun Alxaslı kənd sakini şəhid Əliyev Nihad Heydər oğlu 22 noyabr 2000 – ci ildə Laçın rayonunun Alxaslı kəndində anadan olmuşdur. 15 sentyabr 2007 – ci ildə Laçın rayonu Şəhid Polad Bəylərov adına Alaslı kənd tam orta məktəbinin 1 - ci sinfinə qəbul olmuş, 2015 - 2016 – cı buraxılış ilində həmin məktəbin IX sinfini bitirmişdir. Elə həmin ilin sentyabr ayında sənədlərini Zərdab Rayon Peşə Liseyinə təqdim edərək, həmin liseyə qəbul olunmuşdur. 2019-cu ildə həmin liseyi bitirmişdir. 2019 – cu ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılmış Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətə başlamışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman Əliyev Nihad Heydər

oğlu Kəlbəcər rayonunun Murovdağ yüksəkliyinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2 oktyabr 2020-ci il tarixdə Murovdağ yüksəkliyinin erməni işğalçılarından azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Ağcabədi rayonunun Taxta Körpü ərazisindəki Alxaslı obasında Alxaslı kənd qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra ”Vətən uğrunda” medalı, “Kəlbəcərin azad olunmasına görə“ medalı və “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunmuşdur.

**Şahvələdov İlyas Ehtibar oğlu**



Laçın rayonunun Qorçu kənd sakini şəhid Şahvələdov İlyas Ehtibar oğlu 6 avqust 1996-cı ildə Bərdə rayonunda anadan olmuşdur. 1 sentyabr 2003-cü ildə Bərdə rayonu Qaratəpə kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2014-cü ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Şahvələdov İlyas Ehtibar oğlu 2014-cü ilin oktyabr ayında həqiqi hərbi xidmətə yola düşmüş, 2016-cı ilin “Aprel” döyüşlərində iştirak edib və döyüşlər başa çatdıqdan sonra hərbidən ehtiyata buraxılmışdır. 2020-ci ilin yanvar ayından Müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarında xidmətə başlamışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyyatına başlayan zaman Şahvələdov İlyas Ehtibar oğlu torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 4 oktyabr 2020-ci ildə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda

gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 10 oktyabr 2020-ci ildə Bərdə rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı və "Füzulinin azad olunmasına görə" medalı, ilə təltif edilmişdir.

**Əhmədov Mənsur Mamed oğlu**



Laçın rayonunun Çıraqlı kənd sakini şəhid Əhmədov Mənsur Mamed oğlu 6 mart 2002-ci ildə Abşeron rayonunun Masazır kəndində anadan olmuşdur. 2008-ci ilin sentyabr ayında Laçın rayon Çıraqlı kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2019-cu ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Əhmədov Mənsur Mamed oğlu 2020-ci ilin aprel ayında həqiqi hərbi xidmətə yola düşmüşdür.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman Əhmədov Mənsur Mamed oğlu Cəbrayıl, Füzuli və Hadrut rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 21 oktyabr 2020-ci il tarixdə Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 22 oktyabr 2020-ci il tarixdə Abşeron rayonu Masazır kəndi ərazisində yerləşən qəbristanlıqda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Nəcəfov Etibar Mehman oğlu**



Laçın rayonunun Şeylanlı kənd sakini şəhid Nəcəfov Etibar Mehman oğlu 14 noyabr 1998-ci il tarixdə Ağcabədi rayonu Aran kəndində anadan olmuşdur. 2014-cü ildə Ağcabədi rayonu Aran kənd ümumi orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2016-ci ildə Aran kənd 1 saylı tam orta məktəbinin 11-ci sinifini bitirmişdir. Nəcəfov Etibar Mehman oğlu 2017-ci ilin yanvar ayında həqiqi hərbi xidmətə yola düşmüş, 2018-ci ilin iyul ayında hərbi xidmətdən ehtiyata buraxılmışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman könüllü olaraq torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 20 oktyabr 2020-ci il tarixdə Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 26 noyabr 2020-ci ildə Ağcabədi rayonu Taxtakörpü ərazisi Şeylanlı obası kənd qəbirsanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra “Vətən uğrunda” medalı, “Cəsur döyüşçü” medalı, “Cəbrayılın azad olunmasına görə” medalı, “Füzulinin azad olunmasına görə” medalı, “Xocavəndin azad olunmasına görə” medalı və “Qubadlının azad olunmasına görə” medalı ilə təltif edilmişdir.

**Xosrovzadə İlkin Azay oğlu**



Laçın rayonunun Bülövlük kənd sakini şəhid Xosrovzadə İlkin Azay oğlu 1 dekabr 1997-ci ildə Abşeron rayon Ceyranbatan qəsəbəsində anadan olmuşdur. 1 sentyabr 2004-cü ildə Şəhid Bayram Məmmədov adın Laçın rayon Minkənd tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2015-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Həmin il Xosrovzadə İlkin Azay oğlu Bakı Biznes Univerisitetinə daxil olmuşdur. 2017-ci ildə təhsilini donduraraq həqiqi hərbi xidmətə yola düşmüş, 2019-cu ilin iyun ayında hərbi xidmətdən ehtiyata buraxılmışdır. 2019-cu ilin dekabr ayında Dövlət Sərhəd Xidmətində gizir kimi yenidən xidmətə başlamışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman Xosrovzadə ilkin Azay oğlu torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 23 oktyabr 2020-ci il tarixdə Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 25 oktyabr 2020-ci ildə Abşeron rayon Ceyranbatan qəsəbə qəbirsanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra “Vətən uğrunda” medalı, “Zəngilanın azad olunmasına görə” medalı, və Üçüncü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilmişdir.

**Cabbarov Şahgündüz Habil oğlu**



Laçın rayonunun Oğuldərə kənd sakini şəhid Cabbarov Şahgündüz Habil oğlu 13 yanvar 1995-ci il tarixdə Laçın rayonunun Oğuldərə kəndində anadan olmuşdur. 1 sentyabr 2001-cı ildə Bərdə rayonu Meşəçilik tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2012-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Cabbarov Şahgündüz Habil oğlu 2016-cı ilin iyul ayında həqiqi hərbi xidmətə yola düşmüş, 2017-ci ilin iyul ayında hərbi xidmətdən ehtiyata buraxılmışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman könüllü olaraq torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Cəbrayıl, Füzuli, Xocavənd və Qubadlı rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 25 oktyabr 2020-ci il tarixdə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 26 oktyabr 2020-ci ildə Xəzər rayonu Binə qəsəbəsində şəhidlər qəbirsanlığında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı və "Cəsur Döyüşçü" medalı ilə təltif edilmişdir.

**İlyasov Fərid İbad oğlu**



Laçın rayonunun Hacılar kənd sakini şəhid İlyasov Fərid İbad oğlu 20 iyul 1999-cu ildə Laçın rayonunun Hacılar kəndində anadan olmuşdur. 2006-cı ildə Laçın rayon Sadınlar kənd tam orta məktəbin 1-ci sinfinə gedib və 2010-cu ildə təhsilini Binəqədi

rayonunun 28 May qəsəbəsində yerləşən 306 saylı tam orta məktəbdə davam etdirmiş, 2016-cı ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Fərid İlyasov 2017-ci ilin iyul ayından hərbi xidmətə getmiş, 2018-ci ilin yanvar ayında hərbi xidmətdən ehtiyata buraxılmışdır. Daha sonra Naxçıvan Xüsusi Təyinatlı Dəstəsində müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başlamışdır.

2020-ci ilin sentyabrın 27-də başlayan Vətən Müharibəsində iştirak edən Fərid İlyasov 2020-ci il oktyabrın 30-da Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış, Bakı şəhəri İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı, "Hərbi xidmətlərə görə" medalı, "Şuşanın azad olunmasına görə" medalı, "Xocavəndin azad olumasına görə" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

**Qənimətov Ətraf Oktay oğlu**



Laçın rayonunun Vəlibəyli kənd sakini şəhid Qənimətov Ətraf Oktay oğlu 20 mart 1997-ci ildə Şəki rayonununda anadan olmuşdur. 1 sentyabr 2003-cü ildə Şəki rayonu Çələbixan qəsəbə Köçkünlər tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2014-cü ildə Laçın rayon Nuşrəvan Süleymanov adına Kaha kənd tam orta məktəbin 11-ci sinifini bitirmişdir. 2014-cü ildə Sumqayıt Dövlət Universitetinin Tarix fakultəsinə qəbul olmuşdur .2018-cu ildə həmin universitetin bakalavr pilləsini bitirmişdir .2019 -cu ildə həqiqi hərbi xidmətə yola düşmüş, Naxçıvan Muxtar Respublikası Əlahiddə Ümumqoşun orduda hərbi

xidmət keçmişdir .2020 ci ilin yanvar ayında hərbi xidmətdən ehtiyata buraxılmışdır. 2020-ci ilin mart ayından Azərbaycan ordusunda zabit kimi xidmətə başlamışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman Qənimətov Ətraf Oktay oğlu torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Füzuli rayonlaru uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 13 oktyabr 2020–ci il tarixdə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur 30 oktyabr 2020-ci il tarixdə Şəki rayonu Dovşan düzü deyilən ərazidə yerləşən şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra “Vətən uğrunda” medalı, “Füzulinin azad olunmasına görə” medalı, “Döyüşdə Fərqlənməyə görə medalı və 3 cü dərəcəli “Rəşadət” ordeni ilə təltif edilmişdir.

**Hacıyev Şükür Aslan oğlu**



Laçın rayonunun Budaqdərə kənd sakini şəhid Hacıyev Şükür Aslan oğlu 8 mart 2000-ci ildə Yevlax rayon Varvara kəndində anadan olmuşdur. 2006-cı ildə Yevlax rayonu Varvara kənd ərazisində faliyyət göstərən köçkün məktəbinin 1-ci sinifinə daxil olmuş, 2013-ci ildən təhsilini Yevlax şəhər 10 saylı tam orta məktəbində davam etdirmiş, 2017 ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Hacıyev Şükür Aslan oğlu 2018-ci ilin yanvar ayında həqiqi hərbi xidmətə yola düşmüş, 2020-ci ilin iyun ayında hərbi xidmətdən ehtiyata buraxılmışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun

əks hücum əməliyatına başlayan zaman Hacıyev Şükür Aslan oğlu könüllü olaraq torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Cəbrayıl, Füzuli, Xocavənd və Qubadlı rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 05 noyabr 2020-ci il tarixdə Şuşa-Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 06 noyabr 2020-ci il tarixdə Ağdam rayonu Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı, "Qubadlının azad olunmasına görə" medalı və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**Abbaslı Elgin Ağayar oğlu**



Laçın rayonunun Dəyhan kənd sakini şəhid Abbaslı Elgin Ağayar oğlu 16 may 1991-ci ildə Laçın rayonunun Dəyhan kəndində anadan olmuşdur. 1 sentyabr 1997-ci il tarixdə Sumqayıt ərazisinin Sarıqaya yaşayış massivində yerləşən Laçın rayonu 21 saylı tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2008-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Abbaslı Elgin Ağayar oğlu 2009-cu ilin iyul ayında həqiqi hərbi xidmətə yola düşmüş, 2011-ci ilin yanvar ayında hərbi xidmətdən ehtiyata buraxılmışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman Abbaslı Elgin Ağayar oğlu könüllü olaraq torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 10 noyabr 2020-ci il tarixdə Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə

qəhrəmancasına şəhid olmuşdur. 17 noyabr 2020-ci il tarixdə Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən sonra “Vətən uğrunda” medalı və “Füzulinin azad olunmasına görə” medalı, “Şuşanın azad olunmasına görə” medalı və “Cəbrayılın azad olunmasına görə” medalı və ilə təltif edilmişdir.



**Cabbarov Elnur Şahmurad oğlu**

Laçın rayonunun Qarakeçdi kənd sakini şəhid Cabbarov Elnur Şahmurad oğlu 15 sentyabr 1994-cü ildə Laçın rayonunun Qarakeçdi kəndində anadan olmuşdur. 1 sentyabr 2001-cı ildə Laçın rayon Taxtakörpü qəsəbə tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2012-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Cabbarov Elnur Şahmurad oğlu 2013-cü ilin oktyabr ayında həqiqi hərbi xidmətə yollanmış, 2015-ci ilin aprel ayında həqiqi hərbi xidmətdən təxris olunmuşdur. 17 iyun 2020-ci ildən Azərbaycan ordusunda müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başlamışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman Cabbarov Elnur Şahmurad oğlu torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Cəbrayıl, Füzuli, Xocavənd, Zəngilan və Şuşa rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 5 noyabr 2020-ci il tarixdə Şuşa istiqamətində gedən döyüşlərdə ağır yaralanmış, 12 noyabr 2020-ci ildə şəhid olmuşdur. Ağcabədi rayonunun Taxta Körpü ərazisindəki Qarakeçdi obasında Qarakeçdi kənd qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına

əsasən ölümündən sonra "Qarabağ" ordeni, “Vətən uğrunda” medalı, “Cəbrayılın azad olunmasına görə” medalı, “Füzulinin azad olunmasına görə” medalı və “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.



**Həsənov Tural Rauf oğlu**

Laçın rayonunun Mişni kənd sakini şəhid Həsənov Tural Rauf oğlu 15 iyun 1997-ci ildə Qaradağ rayonu Sahil qəsəbəsində anadan olmuşdur. 2003-cü ildə Qaradağ rayonu Ümid qəsəbəsində 294 nömrəli tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2014-cu ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Həsənov Tural Rauf oğlu 2014-cü ildə Lənkəran Dövlət Universitetinin İngilis dili (tərcüməçi) fakültəsinə qəbul olmuş, 2018-ci ildə ali təhsilin başa vuraraq hərbi xidmətə yola düşmüşdür. 2019-cu ilin iyul ayında hərbi xidmətdən ehtiyata buraxılmışdır.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan ordusunun əks hücum əməliyatına başlayan zaman Həsənov Tural Rauf oğlu könüllü olaraq torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərə qatılmış, Cəbrayıl, Füzuli və Şuşa rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 30 dekabr 2020-ci il tarixdə Xocavənd rayonu Danaçı kəndində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olmuşdur. 31 dekabr 2020-ci il tarixdə Qaradağ rayonu Ümid qəsəbəsində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən ölümündən əvvəl “Cəbrayılın azad olunmasına görə” medalı, “Füzulinin azad olunmasına görə” medalı ilə təltif edilmişdir.

**Sarıyev Elməddin Hümbət oğlu**



Laçın rayonunun Budaqdərə kənd sakini, 5 mart 1997-ci ildə Ağdam rayonu Qaradağlı kəndində anadan olmuşdur. 29 sentyabr 2020-ci ildə Ağdam rayonu Qaradağlı kəndinə top mərmisi düşməsi nəticəsində həlak olmuşdur.

**İsmayılova Zülfiyyə İsgəndər qızı**



Laçın rayonunun Bülündüz kənd sakini, 4 dekabr 1976-cı ildə Beyləqan rayonunda anadan olmuşdur. 3 oktyabr 2020-ci ildə yaşadığı evə çoxsaylı top mərmisinin düşməsi nəticəsində həlak olmuşdur.

**Paşayev Niftalı Səlim oğlu**



Laçın rayonunun Qorçu kənd sakini, 20 mart 1995-ci ildə Laçın rayonu Qorçu kəndində anadan olmuşdur. 28 oktyabr 2020-ci ildə Bərdə rayonuna atılan Smerç tipli raketdən ayrılan qəlpə nəticəsində başından ağır yaralanmışdır. 5 noyabr 2020-ci ildə Gəncə şəhərində vəfat etmişdir.

**Rəhimov Şahmalı Ətraf oğlu**



Laçın rayonunun Bülündüz kənd sakini, 29 may 2004-cü ildə Laçın rayonu İpək kəndində anadan olmuşdur. 7 noyabr 2020-ci ildə Bərdə rayonu Yeni Əyricə kəndinə raket atılması nəticəsinə həlak olmuşdur.

http://www.lachin-ih.gov.az/page/54.html

# Kəlbəcər rayonu



**Abdullayev Rasim Yaqub oğlu**



Abdullayev Rasim Yaqub oğlu 21 fevral 1975-ci ildə Kəlbəcər rayonunda anadan olub. 2000-ci ildə könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin tibb xidmətində hərbi tibb qulluqçusu olaraq vəzifəsinə başlamışdır.

İlk xidməti 2000-ci ildə Əhmədbəyli hospitalında olmuşdur. 2010-cu ildə Müdafiə nazirinin müvafiq əmrinə əsasən "Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı və 2015-ci ildə isə "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medalı ilə təltif edilmişdir. 2015-ci ildən 2016-cı ilin sonunadək Gəncədə yerləşən hərbi poliklinikada rəis vəzifəsində çalışmışdır.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər zamanı qızğın nöqtələrdə yaralı zabitlərə yerindəcə tibbi yardım göstərmişdir. Bu xidmətlərdən sonra 2016-cı ilin sonları, 2017-ci ilin əvvəlləri onun iş yeri dəyişdirilmiş və Rasim Abdullayev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tibb xidməti rəisi vəzifəsinə təyin olunmuşdur. 2020-ci ilin əvvəllərinə qədər bu vəzifəni yerinə yetirən Rasim Abdullayev son vəzifəsinə — Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində tibb bölüyünün komandiri vəzifəsinə təyin olunmuş və Vətən müharibəsi başlayana qədər bu vəzifəni yerinə yetirmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən genişmiqyaslı təxribat törədilmişdir və cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri iriçaplı silahlar, mi-

naatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutulmuşdur. Ermənistan Silahlı Qüvvələrinin döyüş fəaliyyətinin qarşısını almaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən cəbhəboyu zonada hücum əməliyyatlarının başlaması barədə qərar verilmişdir. Qarabağ münaqişəsi tarixinə münaqişəyə son qoyan Vətən müharibəsi kimi yazılan bu hərbi əməliyyatları zamanı polkovnik-leytenant Rasim Abdullayev "N" saylı hərbi hissənin tibb bölüyünün komandiri idi. O, Hadrut istiqamətində gedən döyüşlərin ən qızğın nöqtələrində qalmış yaralılara yerindəcə tibbi yardım göstərmiş və şəhid olduğu günə, yəni Vətən müharibəsinin son gününə qədər 100-dən çox yaralıya döyüş meydanındaca tibbi yardım göstərmişdi. Rasim Abdullayevə 10 noyabr 2020-ci ildə müharibənin son dəqiqələri, üçtərəfli bəyanat imzalanandan bir müddət əvvəl Şuşa istiqamətində qalmış yaralıların çıxarılması ilə bağlı Komandanlıq tərəfindən tapşırıq gəlir. Rasim Abdullayev öz istəyi ilə və bu tapşırığa əsasən hərbi tibb maşını ilə Hadrut-Şuşa yoluna çıxır. Xocalı rayonunun Çanaqçı kəndi istiqamətində, Şuşaya az qalmış Abdullayevin maşını pusquya düşür. Bu zaman açılan atəşlərdən yaralanan Rasim Abdullayev şəhid olmuşdur. Bakı şəhəri II Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Cəfərov Zaur Hüseyn oğlu**



Cəfərov Zaur Hüseyn oğlu 04 mart 1980-cı ildə Kəlbəcər rayonunda anadan olmuşdur. İbtidai təhsilinə 1986-ci il indiki şəhid Namiq Əbdüləliyev adına Başlıbel kənd orta məktəbində başlamışdır. Orta təhsilini 1997-ci ildə Qaradağ rayonu Qızıldaş qəsəbəsində indi şəhid Azər Namazovun adını daşıyan orta məktəbdə başa vurmuşdur. 1997-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2001-ci ilə qədər ali hərbi məktəbdə təhsil almışdır. 2001-ci ildə ali hərbi məktəbi bitirərək həmin il Müdafiə Nazirliyinin əmrinə əsasən leytenant rütbəsi ilə bitirib. Leytenant Zaur Cəfərova Dövlət Attestasiya Komissiyasının 20 avqust 2001-ci il tarixli qərarı ilə "raket qoşunlarının artilleriya və raket artilleriya qoşunlarının döyüş fəaliyyətinin idarə edilməsi, operativ-taktiki, taktiki-raket, yerüstü artilleriya və sahil raket artilleriya silahlarının döyüş tətbiqi, yerüstü artilleriyanın taktiki komandanlığı" ali peşə istiqaməti üzrə bakalavr dərəcəsi verilib. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 01.10.2001-ci il tarixindən 28.07.2002-ci il tarixinə kimi fəaliyyət göstərən zabit ixtisas kursundan keçmişdir.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 12.05.2003-cü il tarixindən 25.06.2003-cü il tarixinə kimi fəaliyyət göstərən artilleriya batareya komandiri kursunu, 14.11.2005-ci il tarixindən 17.12.2005-ci il tarixinə kimi fəaliyyət göstərən artilleriya divizionu komandirinin maddi-texniki təminat üzrə müavini kursunu, 01.09.2008-ci il tarixindən 11.10.2008-ci il tarixinə kimi fəaliyyət göstərən artilleriya divizionunun qərargah rəisi - divizion komandirinin müavini kursunu, 03.02.2014-cü il tarixindən

15.03.2014-cü il tarixinə kimi fəaliyyət göstərən artilleriya divizionunun komandiri kursunu müvəffəqiyyətlə bitirmişdir.

Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə nazirinin 0109t №-li 26 iyun 2008-ci il tarixli əmri ilə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı ilə, 26 iyun 2014-cü il tarixli 0199t №-li əmri ilə "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı ilə və 0204t №-li əmri ilə isə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalları ilə təltif olunmuşdur.

2016-cı il aprelin 1-dən 2-nə ötən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər zamanı Zaur Cəfərov yaxından iştirak edirdi. Gecə döyüşləri zamanı Cəbrayıl rayonunun Lələtəpə istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Lələtəpə zirvəsi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə nazirinin 087t №-li 12 may 2016-cı il tarixli əmri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)" yubiley medalı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının İxtisaslaşdırılmış Elmi Şurasının 16 iyun 2016-cı il tarixli qərarı ilə "hərbi və dövlət müdafiəsini idarəetmə" ixtisasının "hərbi idarəetmə (əməliyyat-taktiki səviyyə) ixtisaslaşması üzrə magistr elmi-ixtisas dərəcəsi verilmişdir. Təhsilini bitirdikdən sonra ona polkovnik-leytenant rütbəsi verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2018-ci il tarixli əmri ilə "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə görə 2020-ci il 25 iyun tarixində Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

2020-ci il iyulun 12-də Ermənistan Silahlı Qüvvələrinin bölmələri Azərbaycan–Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində Dövlət Sərhəd Xidmətinin mövqelərini artilleriya qurğularından atəşə tutulması zamanı Zaur Cəfərov "N" saylı hərbi hissənin qərargah rəisi idi və döyüşlərdə yaxından iştirak edirdi.

Z.Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edib. Oktyabrın 9-dan 10-a keçən gecə Ağdərə istiqamətində gedən şiddətli döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısını alarkən minaya düşərək şəhid olmuşdur. Zaur Cəfərov 19.10.2020-ci il tarixdə Bakı şəhəri II Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

**Azər Əmrah oğlu Mikayılov**



Mikayılov Azər Əmrah oğlu 1 avqust 1980 ci ildə Kəlbəcər rayonunda anadan olmuşdur. 1993-cü il aprelin 2-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğal edilməsindən sonra Mikayılovlar ailəsi Goranboy rayonunda yaşamağa başlayıblar. 1997-ci ildə orta təhsilini bitirdikdən sonra 1998-2002-ci illərdə Ali Hərbi Məktəbdə təhsil aldı. 2002-2003-cü illərdə təhsilini Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində davam etdirib leytenant hərbi rütbəsinə layiq görülüb. Daha sonra xidmətini Naxçıvan MR-nın N saylı hərbi hissəsində xidmətini kəşfiyyatçı kimi davam etdirib.2016-cı il aprelin 1-dən 2-nə ötən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Füzuli, Lələtəpə istiqamətlərində şiddətli döyüşlər başladı. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Azər Mikayılov əməliyyatlarda yaxından iştirak edirdi.O, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində yaxından iştirak etmişdir. A.Mikayılov Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş və oktyabr ayının 12-də qəhrəmancasına şəhid olmuşdur. Ailəli idi. 12 oktyabr 2020-ci ildə Yevlax şəhər Şəhidlər Xiyabanında dəfn edilib. Ölümündən sonra ona Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Qarabağ" ordeni, “Vətən uğrunda” və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Atayev Nicat Habil oğlu**



Atayev Nicat Habil oğlu 1994-cü il martın 5-də Mingəçevir şəhərində anadan olmuşdur. O, II Qarabağ müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Azərbaycan Ordusunun leytenantı olan Nicat Atayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş və sentyabrın 27-də Füzuli döyüşləri zamanı Yuxarı Əbdürrəhmanlı istiqamətində Şəhid olmuşdur. Bakı şəhəri II Şəhidlər Xiyabanında dəfn olunub. N.Atayevə ölümündən sonra Azərbaycan cənab İlham Əliyevin Sərəncamına əsasən "Vətən uğrunda" medalı, Xocavəndin azad olunmasına görə" və Füzulinin azad olunmasına görə medalları ilə təltif edilmişdir.

**Şəfiyev Daşqın Hidayət oğlu**



Şəfiyev Daşqın Hidayət oğlu 22 avqust 1989-cu ildə anadan olub. 1995-ci ildə Samux rayon orta məktəbinin 1-ci sinifinə daxil olub. 2006-cı ildə orta məktəbi bitirib. Həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2008-ci ildə Müdafiə Nazirliyinin N saylı hərbi hissədə hərbi xidmətini başa vuran Daşqın Şəfiyev hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib.

27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarına könüllü olaraq qatılıb. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə Qubadlı və Laçın istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. 05 noyabr 2020-ci il tarixdə Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 06 noyabr 2020-ci il tarixdə Samux rayon Seyidlər kəndində dəfn edilib. 15 dekabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda” və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Əmrahov Saməddin Şamil oğlu**



Əmrahov Saməddin Şamil oğlu 02 oktyabr 1978-ci ildə Kəlbəcər şəhərində anadan olub. 1985-ci ildə Kəlbəcər şəhəri, 3 nömrəli tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 1993-cü il aprelin 2-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğal edilməsindən sonra Əmrahovlar ailəsi Oğuz rayonunun Calut kəndində yaşamağa başlayıblar. 1993-cü ildə orta təhsilini Calut kənd tam orta məktəbində davam etdirib. 1996-cı ildə həmin məktəbin 11-ci sinifini bitirib. Həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 1998-ci ildə müddətli həqiqi hərbi xidmətini müvəffəqiyyətlə bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmişdir. Azərbaycan Ordusunun kiçik çavuşu olan Saməddin Əmrahov 2020-ci il sentyabrın 27-

də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Saməddin Əmrahov oktyabrın 4-də Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Oğuz rayonunun Calut kənd qəbirstanlığında dəfn edilib. Ailəli idi. Bir oğlu və bir qızı var. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda", və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Orucov Nemət Əkbər oğlu**



Orucov Nemət Əkbər oğlu oğlu 15 noyabr 1994-cü ildə anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2001-ci ildə Goranboy rayon Qaraçinar kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2011-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirib. 2011-ci ildə Azərbaycan Texnologiya Universitetinin (ATU) ekologiya mühəndisliyi fakültəsində qəbul olunan Nemət 2016-cı ildə universiteti yüksək nailiyyətlərlə bitirib.

Həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2017-ci ildə Müdafiə Nazirliyinin N saylı hərbi hissədə hərbi xidmətini kəşfiyyatçı olaraq başa vuran Nemət Orucov hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 2018-ci ildən hərbi xidmətini "leytenant" rütbəsi ilə davam etdirib. Zabitlik kursunu bitirdikdən sonra Beyləqan və Ağcabədi rayonlarında yerləşən "N" saylı hərbi hissədə post komandiri vəzifəsində xidmət edib. 17 noyabr

2018-ci ildə Azərbaycan Ordusunda "Ən yaxşı motoatıcı bölük" adı uğrunda keçirilən yarışlarda yüksək nəticələr əldə etdiyinə və 3 mart 2019-cu ildə hərbi hissənin yaranmasının 27-ci ildönümü münasibəti ilə döyüş və ictimai siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə fəxri fərmanlar ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun leytenantı olan Nemət Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Nemət Orucov sentyabrın 27-də Xocavənd döyüşləri zamanı rayonda yerləşən Nərgiztəpə ərazisində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olub. Subay idi. 28 sentyabr 2020-ci ildə Goranboy rayonunun Qaraçinar kəndində dəfn edilib. 15 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



**Muxtarov Taleh Həşim oğlu**

Muxtarov Taleh Həşim oğlu 01 dekabr 1985-ci ildə Kəlbəcər rayonunun Kəndyeri kəndində anadan olub. 1991-ci ildə Kəlbəcər rayon Kəndyeri kənd tam orta məktəbin 1-ci sinifinə daxil olub. 1993-cü il aprelin 2-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğal edilməsindən sonra Muxtarovlar ailəsi Goranboy rayonunun Xanqərvənd kəndində yaşamağa başlayıblar. Orta təhsilini Goranboy rayonunun Xanqərvənd

kəndində davam etdirib. 2003 ildə həmin məktəbi bitirdikdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini başa vuran Taleh Muxtarov hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarına könüllü olaraq qatılıb. Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. 07 oktyabr 2020-ci il tarixdə Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ailəli idi. 07 oktyabr 2020-ci ildə Goranboy rayonunun Xanqərvənd kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Abdullayev Həsən Aydın oğlu**



Abdullayev Həsən Aydın oğlu 15 oktyabr 1990-cu il tarixdə Kəlbəcər rayonunda anadan olmuşdur. 2001-ci ildə 1 saylı Sumqayıt şəhər orta məktəbinin 1-ci sinifinə daxil olub. 2002-2012-ci illərdə Abşeron rayonu, Masazır qəsəbəsi 2 saylı tam orta məktəbində təhsil alıb. 2012-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirib. 2012-ci ildə yüksək balla Azərbaycan Kooperasiya Üniversitetinə qəbul olunan Həsən Abdullayev 2016-cı ildə universiteti yüksək nailiyyətlərlə bitirib. Həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Zəngilan rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2017-ci ildə Naxçıvan MR-nın Culfa şəhəri N saylı hərbi hissədə hərbi xidmətini başa vuran Emil Abdüləzimli hərbi xidmətdə olduğu

müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan H.Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Həsən Abdullayev oktyabr ayının 2-də Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Abdullayev Həsən ölümündən sonra “ Vətən uğrunda” və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Abdullayev Şəhriyar Kamil oğlu**



Abdullayev Şəhriyar Kamil oğlu 02 mart 1987-ci ildə anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 1994-cü ildə Tərtər şəhəri Cəmilli kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 1998-ci ildən 73 saylı tam orta məktəbində təhsilini davam etdirib. 2005-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirib.

Həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

2007-ci ildə Ağcəbədi rayonunun N saylı hərbi hissəsindədə hərbi xidmətini başa vuran Şəhriyar Abdullayev hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 2013-cü il tarixindən etibarən Xüsusi

Təyinatlı Qüvvələr sırasına daxil olub.

2016-cı il aprelin 1-dən 2-nə ötən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında şiddətli döyüşlər başladı. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Şəhriyar döyüşdə yaxından iştirak edib.

Azərbaycan Ordusunun kiçik giziri olan Şəhriyar Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib.

13 oktyabr 2020-ci il tarixdə Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ailəli idi. 2 qızı yadigar qaldı. 13 oktyabr 2020-ci ildə Daşkəsən rayonu Şəhidlər Xiyabanında dəfn edilib. 15 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda”, 24 dekabr 2020-ci il tarixində "Cəbrayılın azad olunmasına görə", 29 dekabr 2020-ci il tarixində "Kəlbəcərin azad olunmasına görə", 30 dekabr 2020-ci il tarixində "Hərbi xidmətlərə görə" və 24 iyun 2021-ci il tarixində "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Bayramov Samir Elxan oğlu**



Bayramov Samir Elxan oğlu 15 avqust 1996-cı ildə Göygöl rayonunun Yeni Zod kəndində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2003-cü ildə orta məktəb 1-ci sinifinə daxil olub. 2014-cü ildə orta məktəbi müvəffəqiyyətlə bitirib. Həmin ilin iyul ayında Səfərbərlik və Hərbi

Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı ildə hərbi xidmətini başa vuran Samir Bayramov hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. Artıq 2017-ci ildən etibarən Silahlı Qüvvələrin N saylı hərbi hissəsində hərbi xidmətini kəşfiyyatçı gizir kimi fəaliyyətə başlamışdır. Azərbaycan Ordusunun giziri olan Samir Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib.

Sentyabrın 30-da Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 03 dekabr 2020-ci ildə Göygöl rayon Şəhidlər Xiyabanında dəfn edilib.

15 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

**Bəylərov Seymur Səlyəddin oğlu**



Bəylərov Seymur Səlyəddin oğlu 24 iyun 1996-cı ildə Samux rayonunun Qarayeri kəndində anadan olub. 2003-cü ildə Samux rayonu Qarayeri kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2014-cü ildə orta məktəbi bitirib.

Həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı ildə Naxçıvan MR-in N saylı hərbi hissəsində hərbi xidmətini başa

vuran Seymur hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 2017-ci ildən etibarən Silahlı Qüvvələrin N saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib.

27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarında torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. 28 sentyabr 2020-ci il tarixdə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 28 oktyabr 2020-ci ildə Samux rayon Qarayeri kəndində dəfn edilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Suqovuşanın azad olunması" və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Həsənli Zərimxan Rafiq oğlu**



Həsənli Zərimxan Rafiq oğlu 07 dekabr 2001-ci ildə Mingəçevir şəhərində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2007-ci ildə Tərtər rayon Bəyimsarov kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2018-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirib.

2020-ci ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Zərimxan Həsənli 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə

olmuşdur. O, Ağcabədi rayonunda, sonra isə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Zərimxan Həsənli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində artilleriya komandasında iştirak etmişdir. Füzulinin və Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlərdə qumbaraatan olaraq vuruşmuşdur.

11 oktyabr 2020-ci ildə Füzuli-Hadrut istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Subay idi. 12 oktyabr 2020-ci ildə Tərtər rayon Bəyimsarov kəndində dəfn edilib.

15 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, 29 dekabr 2020-ci il tarixində "Cəbrayılın azad olunmasına görə", 24 iyun 2021-ci il tarixində "İgidliyə görə" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**Qabilov İsmayıl Əli oğlu**



Qabilov İsmayıl Əli oğlu 15 iyul 1983-cü ildə Kəlbəcər rayonunun Mozqaraçanlı kəndində anadan olub. 1990-cı ildə Kəlbəcər şəhər Mozqaraçanlı kənd orta məktəbinin 1-ci sinifinə daxil olub.

1993-cü il aprelin 2-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğal edilməsindən sonra Qabilovlar ailəsi Gəncə şəhərində yaşamağa başlayıblar. Orta təhsilini Gəncə şəhər 8 saylı tam orta

məktəbdə davam etmişdir. Orta məktəbi bitirdikdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Ağdam rayon N saylı hərbi hissədə hərbi xidmətini başa vuran İsmayıl Qabilov hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. Azərbaycan Ordusunun çavuşu olan İsmayıl Qabilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə Murovdağ istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. Sentyabrın 27-i Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ailəli idi. Uzun müddətdən sonra nəşi tapılaraq ailəsinə təhvil verilmişdir. 05 dekabr 2020-ci il tarixində Göygöl rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Kəlbəcərin azad olunması" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

**Həsənli Seymur Qələndər oğlu**



Həsənli Seymur Qələndər oğlu 09 noyabr 1993-cü ildə Yevlax rayonunun Nurallar kəndində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2000-ci ildə Yevlax şəhər Malbinəsi kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2011-ci ildə orta məktəbi bitirdikdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi

hərbi xidmətə çağırılıb. Silahlı Qüvvələrin N saylı hərbi hissədə hərbi xidmətini başa vuran Seymur hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. Daha sonra xidmətini Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirmişdir.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Seymur Həsənli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. Noyabr ayının 7-də Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 11 noyabr 2020-ci ildə Yevlax şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

15 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda”, 25 dekabr 2020-ci il tarixində "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Hüseynzadə Elgiz İbrahim oğlu**



Hüseynzadə Elgiz İbrahim oğlu 08 oktyabr 2001-ci ildə Tərtər rayonunun Bəyimsarov kəndində anadan olub. 2008-ci ildə Tərtər rayon 68 saylı Bəyimsarov kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2020-ci ildə orta məktəbi bitirdikdən sonra həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Elgiz 2020-ci ildən Azərbaycan Silahlı

Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi. Azərbaycan Ordusunun əsgəri olan Elgiz Hüseynzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib.

22 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Subay idi. 9 oktyabr 2020-ci ildə Tərtər rayon Bəyimsarov kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunması" medalları ilə təltif edilmişdir.

**İlyasov Bəhrəm Nizam oğlu**



İlyasov Bəhrəm Nizam oğlu 30 noyabr 1998-ci ildə Bərdə rayonunun Nəcəfqulubəyli kəndində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2004-cü ildə Şəhid Binadar Məmmədov adına Bərdə şəhər Yeni Əyricə kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2015-ci ildə orta məktəbi bitirmişdir.

2017-ci ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2018-ci ildə Silahlı Qüvvələrin N saylı hərbi hissəsində hərbi xidmətini kəşfiyyatçı kimi başa vuran Bəhrəm İlyasov hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 2020-ci ilin Tovuz döyüşlərindən sonra Bəhrəm İlyasov

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon şöbəsinə getmiş və hərbi xidmətə çağırılmışdır. Təlim mərkəzlərindən birində kurs keçdikdən sonra "N" saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Bəhrəm İlyasov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində böyük şücaət göstərib. Bəhrəm İlyasov Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Subay idi. 13 oktyabr 2020-ci ildə Bərdə rayon Nəcəfqulubəyli kəndində dəfn edilib.

15 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda”, 29 dekabr 2020-ci il tarixində "Suqovuşanın azad olunmasına görə" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Mönsümzadə Orxan Səfiyar oğlu**



Mönsümzadə Orxan Səfiyar oğlu 17 sentyabr 1993-cü ildə Bərdə şəhər 2-ci Ərəb Çadır şəhərciyində anadan olub. 1999-cu ildə Ağdam 106 saylı tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2006-cı ildə orta təhsilini Ağdam rayon Baharlı qəsəbə məktəbində davam etdirib. 2011-ci ildə orta məktəbi bitirdikdən sonra həmin ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2013-cü ildə Naxçıvan MR-nın “N” saylı hərbi hissədə hər-

bi xidmətini başa vuran Orxan hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 2014-cü ildən etibarən xidmətini Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirmişdir. 2016-cı il aprel ayından başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında şiddətli döyüşlər başladı. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Orxan Mönsümzadə əməliyyatlarda yaxından iştirak etmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Orxan Mönsümzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Ağdam istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. Topçu olan Orxan Mönsümzadə sentyabrın 28-də Ağdam istiqamətində qəhrəmancasına şəhid olub. Subay idi. 29 sentyabr 2020-ci ildə Bərdə şəhər Cəyirli kəndində dəfn edilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Musayev Murad Polad oğlu**



Musayev Murad Polad oğlu 01 oktyabr 2001-ci ildə Bərdə rayonunun İmirli kəndində anadan olub. 2008-ci ildə Bərdə şəhərində yerləşən "Kəlbəcər rayon 26 saylı tam orta məktəb"inin 1-ci sinifinə daxil olub. 2019-cu ildə orta məktəbi bitirdikdən sonra. Həmin ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin

Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Murad 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi. Əvvəlcə, Ağcabədi rayonunda, sonra isə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Murad Musayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib.

29 sentyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Subay idi. 29 sentyabr 2020-ci ildə Bərdə şəhər İmirli kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda” və “Füzulinin azad olunması” medalları ilə təltif edilmişdir.

**Rzayev Ülfət Novruz oğlu**



Rzayev Ülfət Novruz oğlu 11 fevral 2000-ci ildə Tərtər rayonunun Cəmilli kəndində anadan olub. 2007-ci ildə Kəlbəcər rayon 68 saylı tam orta məktəbin 1-ci sinifinə daxil olub. 2018-ci ildə orta məktəbi bitirib. 2019-cu ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Azərbaycan Ordusunun əsgəri olan Ülfət Rzayev 2020-

ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib.

05 noyabr 2020-ci il tarixdə Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 13 noyabr 2020-ci ildə Tərtər rayon Cəmilli kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**Verdiyev Eldəniz Rabil oğlu**



Verdiyev Eldəniz Rabil oğlu 04 oktyabr 1999-cu ildə Göygöl şəhərində anadan olub. 2005-ci ildə 1 saylı Kəlbəcər rayon 107 saylı tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2016-cı ildə orta məktəbi bitirmişdir. 2017-ci ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2019-cu ildə Qəbələ rayonunda yerləşən N saylı hərbi hissədə hərbi xidmətini başa vuran Eldəniz hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 2020-ci ilin sentyabr ayından etibarən Silahlı Qüvvələrin N saylı hərbi hissəsində xidmətini müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirmişdir.

Eldəniz Verdiyev 27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarında torpaqlarımızın azadlığı uğrunda gedən

döyüşlərdə Murovdağ istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. 02 oktyabr 2020-ci il tarixdə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. Uzun müddət nəşi tapılmamışdır. 2021-ci il iyunun 4-ü Eldəniz Verdiyevin nəşi tapılır və ailəsinə təhvil verilir. 05 iyun 2020-ci ildə Göygöl rayon Şəhidlər Xiyabanında dəfn edilib.

**Məhərrəmli Fuad Füzuli oğlu**



Məhərrəmli Fuad Füzuli oğlu 10 may 2001-ci ildə Tərtər şəhərində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2007-ci ildə Bakı şəhər Suraxanı rayon Yeni Ramana qəsəbəsində yerləşən Fərrux İsrafil oğlu Mehtiyev adına Qubadlı rayon Qaralar kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. Orta məktəbi bitirdikdən sonra 2019-cu ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Fuad hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. Azərbaycan Ordusunun əsgəri olan Fuad Məhərrəmli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərinin azad olunmasında böyük şücaət göstərib. 28 sentyabr 2020-ci ildə Cəbrayıl rayonunun Nüzgar kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Subay idi. 29 sentyabr 2020-ci ildə Göygöl rayon Şəhidlər Xiyabanında dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə F.Məhərrəmli ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Əhmədov Əhmədxan Məzahir oğlu**



Əhmədov Əhmədxan Məzahir oğlu 01 fevral 1999-cu ildə Daşkəsən rayonunun Quşçu kəndində anadan olub. 2006-cı ildə Gəncə şəhərində yerləşən Kəlbəcər 115 saylı tam orta məktəbin 1-ci sinifinə daxil olub. 2017-ci ildə orta məktəbi bitirib. 2020-ci il ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Azərbaycan Ordusunun əsgəri olan Əhmədxan Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaət göstərərək qəhrəmancasına şəhid olmuşdur. Subay idi. 12 noyabr 2020-ci ildə Göygöl rayon Murovdağ qəsəbəsində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Mustafayev Əlzamin Baxış oğlu**



Mustafayev Əlzamin Baxış oğlu 21 iyun 1999-cu ildə Tərtər rayonunun Bəyimsarov kəndində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2005-ci ildə Tərtər rayonunda yerləşən Kəlbəcər 64 saylı tam orta məktəbin 1-ci sinifinə daxil olub. 2016-cı ildə orta məktəbi bitirib. 2017-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2019-cu ildə Hacıqabul rayon N saylı hərbi hissədə hərbi xidmətini başa vuran Əlzamin Mustafayev hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. Daha sonra xidmətini Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə davam etdirib. 27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarında Əlzamin Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. 02 oktyabr 2020-ci il tarixdə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 03 oktyabr 2020-ci ildə Tərtər rayon Bəyimsarov kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Tağıyev Eşqin Asif oğlu**



Tağıyev Eşqin Asif oğlu 18 mart 1998-ci ildə Daşkəsən rayonunun Zəylik kəndində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2003-cü ildə Tağıyevlər ailəsi Göygöl rayonunun Üçtəpə kəndində məskunlaşıb-

lar. 2004-cü ildə Göygöl rayonunda yerləşən Kəlbəcər 115 saylı tam orta məktəbin 1-ci sinifinə daxil olub. 2015-ci ildə orta məktəbi bitirib.

2016-cı ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2017-ci ildə hərbi xidmətini başa vuran Eşqin Tağıyev hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 2018-ci ildən etibarən Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi fəaliyyət göstərmişdir.

27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarında XTQ-nin dəstəsində Xocavənd-Xankəndi istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. 30 oktyabr 2020-ci il tarixdə Xocavənd-Xankəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 01 noyabr 2020-ci ildə Göygöl rayon Murovdağ qəsəbəsində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Mustafayev Elnur Nəcəf oğlu**



Mustafayev Elnur Nəcəf oğlu 09 fevral 2002-ci ildə Bakı şəhərində anadan olub. 2008-ci ildə Bakı şəhər 135 saylı tam orta məktəbin 1-ci sinifinə daxil olub. 2019-cu ildə orta məktəbi bitirib. 2020-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi

xidmətə çağırılıb.

Elnur 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi. Əvvəlcə, Sumqayıt rayonunda, sonra isə Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elnur Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində müxtəlif istiqamətlərdə, o cümlədən də Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edir. 30 oktyabr 2020-ci ildə Xocavənd rayonunda yerləşən Qırmızı Bazar istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Subay idi. 31 oktyabr 2020-ci ildə Bakı şəhər, Binəqədi rayon, Sulutəpə qəsəbəsində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda” və “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif edilmişdir.

**Həmzəyev Şəhriyar Elman oğlu**



Həmzəyev Şəhriyar Elman oğlu 01 mart 2001-ci ildə Yevlax şəhərində anadan olub. 2008-ci ildə orta məktəbin 1-ci sinifinə daxil olub. 2018-ci ildə orta məktəbi bitirib. 2019-cu ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Şəhriyar 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi. Azərbaycan

Ordusunun əsgəri olan Şəhriyar Həmzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Xocavənd istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərmişdir. 29 oktyabr 2020-ci il tarixdə Xocavənd istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Subay idi. 30 oktyabr 2020-ci ildə Göygöl rayon Murovdağ qəsəbəsi Şəhidlər Xiyabanında dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medallarıı ilə təltif edilmişdir.

**Heydərov Qismət İsmayıl oğlu**



Heydərov Qismət İsmayıl oğlu 20 iyul 2002-ci ildə Goranboy rayonunun Erkəc kəndində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2008-ci ildə Goranboy rayon Erkəc kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2018-2019-cu illərdə Goranboy rayon Qaraçinar kənd tam orta məktəbində təhsil alıb. 2019-cu ildə orta məktəbi bitirib. 2020-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Qismət 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi. Əvvəlcə, Ağcabədi rayonunda, sonra isə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Qismət İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad

edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzuli azad olunması uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. 3 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Subay idi. 04 oktyabr 2020-ci ildə Goranboy rayonunun Yolqulular kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Məhəmmədli İsmayıl Mahir oğlu**




Məhəmmədli İsmayıl Mahir oğlu 01 yanvar 1996-cı ildə Gəncə şəhərində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. Orta məktəbi Gəncə şəhərində oxuyan İsmayıl 11 illik orta təhsilini başa vurduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. Daha sonra xidmətini Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində gizir kimi davam etdirib. Azərbaycan Ordusunun giziri olan İsmayıl Məhəmmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. 29 sentyabr 2020-ci il tarixdə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ailəli idi. 14 dekabr 2020-ci ildə Göygöl rayon Şəhidlər Xiyabanında dəfn

edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

**Məmmədov Elşən Dağıstan oğlu**



Məmmədov Elşən Dağıstan oğlu 06 fevral 1996-cı ildə Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olub. Əslən Kəlbəcər rayonundan idi. 2003-cü ildə Tərtər rayon 66 saylı Buruc kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 2014-cü ildə orta məktəbi bitirdikdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı ildə hərbi xidmətini başa vuran Elşən Məmmədov hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 2019-cu ildən etibarən Silahlı Qüvvələrin “N” saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi fəaliyyət göstərib.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Elşən Məmmədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. 19 oktyabr 2020-ci il tarixdə Ağdərə istiqamətində istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 20 oktyabr 2020-ci ildə Bərdə rayonunun Qazaxlar kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

**Rəhimli Bəxtiyar Nəsimi oğlu**



Rəhimli Bəxtiyar Nəsimi oğlu 18 mart 2001-ci ildə Tərtər rayonunda anadan olub. Əslən Kəlbəcər rayonundan idi. Orta məktəbə Tərtər rayonunda oxuyan Bəxtiyar 11 illik orta təhsilini başa vurduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib.

Azərbaycan Ordusunun əsgəri olan Bəxtiyar Rəhimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. 05 oktyabr 2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Subay idi. 07 oktyabr 2020-ci ildə Bərdə rayonunun Qəhrəmanlı kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Hüseynov Mirzə Xəlfə oğlu**



Hüseynov Mirzə Xəlfə oğlu 03 aprel 1991-ci ildə Kəlbəcər rayonunun Çayqovuşan kəndində anadan olub. Orta məktəbə Göygöl rayonunda Mirzə 11 illik orta təhsilini başa vurduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət

Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarında Murovdağ istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərərək qəhrəmancasına şəhid olub. Ailəli idi. 31 dekabr 2020-ci ildə Göygöl rayon Şəhidlər Xiyabanında dəfn edilib.

**Əliyev Arif Ağalar oğlu**



Şəhid
Əliyev Arif Ağalar oğlu

Əliyev Arif Ağalar oğlu 26 iyul 1983-cü ildə Kəlbəcər rayonunun Susuzluq kəndində anadan olub. 1990-cı il tarixində Kəlbəcər rayonunun Susuzluq kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. 1993-cü il aprelin 2-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğal edilməsindən sonra Əliyevlər ailəsi Göygöl rayonunda yaşamağa başlayıblar. Orta təhsilini Göygöl rayonunda davam etdirib. Orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra Universitetə qəbul olmuşdur. Universiteti bitirdikdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmət etmişdir. Daha sonra Kəlbəcər rayon Susuzluq kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəlikdə müavin vəzifəsində çalışan Arif Əliyev 04 iyun 2021-ci il tarixində rəsmi olaraq Kəlbəcər rayon Susuzluq kəndinə səfəri zamanı düşmənin təxribatı nəticəsində minaya düşərək şəhidlik zirvəsinə ucalmışdır. Ailəli idi. 05 iyun 2021-ci ildə Göygöl rayon Şəhidlər Xiyabanında dəfn edilib.

**Həsənov Zabil Məhəmməd oğlu**



Həsənov Zabil Məhəmməd oğlu 01 iyun 1983-cü ildə Kəlbəcər rayonunun Bozlu kəndində anadan olub. 1993-cü il aprelin 2-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğal edilməsindən sonra Həsənovlar ailəsi Tərtər rayonunun Həsənqaya kəndində yaşamağa başlayıblar. Orta təhsilini heç bir yerdə oxumayıb. Daha sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Şakir hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. 27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarında hərbi şəhid və yaralılara kömək edərkən düşmənin atdığı artilleriya nəticəsində şəhid olub. Ailəli idi. 01 oktyabr 2020-ci ildə Tərtər rayon Sarıcalı kəndində dəfn edilib.

**Zamanov Şakir Xasay oğlu**



Zamanov Şakir Xasay oğlu 25 aprel 1988-ci ildə Kəlbəcər rayonunun Keştək kəndində anadan olub. 1993-cü il aprelin 2-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğal edilməsindən sonra Zamanovlar ailəsi Goranboy rayonunun Qaradağlı kəndində yaşamağa başlayıblar. Orta təhsilini Goranboy rayon Qaradağlı kənd tam orta məktəbində davam etdirib. Orta məktəbi bitirdikdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Şakir hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı

və xüsusi xidməti ilə fərqlənib. 27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarında hərbi şəhid və yaralılara kömək edərkən düşmənin atdığı artilleriya nəticəsində şəhid olub. Ailəli idi. 16 oktyabr 2020-ci ildə Tərtər rayon Sarıcalı kəndində dəfn edilib. http://kelbecer-ih.gov.az/page/64.html





# Qubadlı rayonu



**Həmidov Şükür Nəriman oğlu**



Həmidov Şükür Nəriman oğlu 01 aprel 1975-ci ildə Qubadlı rayonunun Armudluq kəndində anadan olmuşdur. Başarat kənd orta məktəbində, sonra Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsil almışdır. 1993-cü ildə Bakı Birləşmiş Ali Hərbi Komandirlər məktəbinə daxil olaraq təhsilini davam etdirmiş və 1995-ci ildə motoatıcı ixtisasına yiyələnərək leytenant rütbəsində Naxçıvanda yerləşən hərbi hissələrin birində tağım komandiri kimi fəaliyyətə başlamışdır. Qısa müddət ərzində bölük komandiri, sonra isə tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsində irəli çəkilmiş, bir müddətdən sonra N saylı hərbi hissədə motoatıcı taborun qərargah rəisi vəzifəsinə təyin edilmişdir.

2008-ci ildə, Hərbi Akademiyanı bitirdikdən sonra cəbhə bölgəsində yerləşən müxtəlif hərbi hissələrdə tabor komandiri, qərargah rəisi, hərbi hissə komandirinin müavini və korpus komandirinin müavini vəzifələrində xidmət etmişdir. Şükür Həmidov Azərbaycan Respublikası Prezidenti adından Azərbaycan Respublikası Müdafiə Nazirinin müxtəlif tarixli əmri ilə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 10, 90, 95 və 100 illiyi” yubiley medalları və III, II, I dərəcəli “Qüsursuz xidmətə görə” medalları, eləcə də “Hərbi xidmətdə fərqlənməyə görə” II, I dərəcəli medalları, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Veteranı” medalı, “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat orqanlarının 100 illiyi” yubiley medalı ilə təltif edilmişdir.

2016-cı il Aprel döyüşlərində - “Lələ təpə" yüksəkliyinin azad edilməsi əməliyyatı zamanı göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidentinin 22 aprel 2016-

cı il tarixli Sərəncamı ilə Şükür Həmidov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş və "Azərbaycan Milli Qəhrəmanının Qızıl ulduz" medalı ilə təltif edilmişdir. 10 may 2016-cı il tarixdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olarkən Şükür Həmidovla görüşmüş və onun əmri ilə polkovnik- leytenant Şükür Həmidova vaxtından əvvəl polkovnik hərbi rütbəsi verilmişdir.

Şükür Həmidov Vətən müharibəsi zamanı 22 oktyabr 2020-ci il tarixdə doğulub böyüdüyü doğma Qubadlı rayonunun azadlığı uğranda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Bakı şəhər "2-ci Fəxri Xiyaban"da dəfn edilmişdir. Dəfndə Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Zakir Həsənov, Qubadlı rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov və digər hökumət və ictimaiyyət nümayəndələri iştirak etmişdir. Dəfn zamanı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev şəhidin atasına zəng edərək başsağlığı vermiş və bildirmişdir ki, Milli qəhrəmanın adı doğulduğu və azadlığı uğrunda həlak olduğu Qubadlı rayonunda əbədiləşdiriləcək. Azərbaycan Respublikası Prezidentinin 09 dekabr 2020-ci il tarixli Sərəncamı ilə polkovnik Həmidov Şükür Nəriman oğlu ölümündən sonra "Zəfər" ordeni ilə, 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Vətən uğrunda", 24 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Füzulinin azad olunmasına görə", 29 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ailəli idi, iki övladı var.

Allah rəhmət eləsin!

**Qasımov Faiq Qaçay oğlu**



Qasımov Faiq Qaçay oğlu 10 fevral 1974-cü ildə Qubadlı rayonunun Qayalı kəndində anadan olub. 1991-ci ildə qardaşı Şəhid Həsən Qorxmazın adını daşıyan Qayalı kənd tam orta məktəbini bitirmişdir. Hərbi xidmətini 1-ci Qarabağ müharibəsində Laçın rayonu və Qubadlı rayonunda Əliyar Əliyevin taborunda topçu kimi vuruşaraq keçirib.

Hərbi xidməti bitirdikdən sonra 1993-cü ildə Bakı Ali Birləşmiş Komandanlıq məktəbinə daxil olub. 1995-ci ildən 2009-cu ilədək Naxçıvanda cəbhə bölgəsində müxtəlif vəzifələrdə çalışmışdır. 2009-cu ildən 2012-ci ilədək Balakən rayonunda N saylı hərbi hissədə xidmət etmişdir. Sonradan öz təkidi ilə Füzuli istiqamətinə göndərilmişdir. 2016-cı ilin aprel ayında “Lələtəpə”uğrunda gedən döyüşlərdə fəal iştirak edən Qasımov Faiq Qaçay oğlu düşmənin çox sayda yüksək rütbəli hərbçilərini məhv etdiyinə görə, ölkə başçısı İlham Əliyev tərəfindən “Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidenti adından Azərbaycan Respublikası Müdafiə Nazirinin müxtəlif tarixli əmrləri ilə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 10,90,95 və 100 illiyi” yubiley medalları və III, II, I dərəcəli “Qüsursuz xidmətə görə” medalları, “Hərbi xidmətdə fərqlənməyə görə” III dərəcəli medalı, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı” medalı ilə təltif olunmuşdur. Faiq Qaçay oğlu Qasımov 2020-ci il sentyabrın 27-də “Ohanyan səddi”ni ilk yaran hərbçilərimizdən olub və rəhbərlik etdiyi qrupu ilə birgə Füzuli rayonu ərazisində düşmənin bir neçə post və səngərini dağıdaraq 300-

ə yaxın düşmən əsgərini və zabitini məhv edərək, qəhrəmancasına şəhid olmuşdur. Vətən müharibəsində şəhid olan ilk rütbəli hərbiçidir. Bakı şəhər "2-ci Fəxri Xiyaban"da dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 09 dekabr 2020-ci il tarixli Sərəncamı ilə polkovnik-leytenant Qasımov Faiq Qaçay oğluna ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş, 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə də o, "Vətən uğrunda", 25 dekabr 2020-ci il tarixli Sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları təltif edilmişdir.

Ailəli idi, 2 övladı var.

Allah rəhmət eləsin!

**Ağayev Vüqar Əhməd oğlu**



Ağayev Vüqar Əhməd oğlu 04 mart 1973-cü ildə Qubadlı rayonunun Xanlıq kəndində anadan olmuş, 1990-cı ildə Xanlıq kənd orta məktəbində orta təhsilini başa vurmuşdur.

1991-1992-ci illərdə Azərbaycan Respublikasının ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. 1992-ci ildə H.Əliyev adına Hərbi Liseyə daxil olmuş, 1994-cü ildə hərbi təhsilini başa vuraraq leytenant rütbəsi almışdır. Qusar rayonu N saylı hərbi hissədə təlimdə olmuş, təlimi başa vurduqdan sonra Naxçıvan qarnizonunda N saylı hərbi hissədə bölük komandiri kimi hərbi xidmətə başlamışdır.

2016-cı ildə hərbi xidmətini başa vuraraq təqaüdə çıxmışdır. Azərbaycan Respublikası Prezidenti adından Azərbaycan Respublikası Müdafiə Nazirinin müxtəlif tarixli

əmri ilə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 10, 90 və 95 illiyi” yubiley medalları və III, II, I dərəcəli “Qüsursuz xidmətə görə” medalları, “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalı ilə təltif edilmişdir. 2020-ci ilin oktyabr ayında könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağınş üzrə Dövlət Xidmətinin Qubadlı Rayon Bölməsinə müraciət edərək Vətən müharibəsində iştirak etmişdir.

01 noyabr 2020-ci il tarixdə Qubadlı rayonu uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olmuş, Bakı şəhər “2-ci Fəxri Xiyaban"da dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 09 dekabr 2020-ci il tarixli Sərəncamı ilə mayor Ağayev Vüqar Əhməd oğluna ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş, 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə də o, “Vətən uğrunda”, 29 dekabr 2020-ci il tarixli Sərəncamı ilə “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

Ailəli idi, iki övladı var.

Allah rəhmət eləsin!

**Alıyev Elçin Bayram oğlu**



Qubadlı şəhər sakini Alıyev Elçin Bayram oğlu 16 iyul 1975-ci ildə Abşeron rayonu Saray qəsəbəsində anadan olub. 1992-ci ildə Qubadlı Şəhər 1 saylı orta məktəbin məzunu olmuşdur.

1992-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olmuş, 1993-cü ildə isə Ali Hərbi məktəbə yerdəyişmə etmişdir. 1993-cü ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin Tank Artilleriya fakültə-

sinin 1-ci kursuna qəbul olmuşdur. 1997-ci ildə Taktiki Yerüstü Artilleriya Komandiri və Artilleriya Silahlarının İstismarı üzrə mühəndis ixtisasma yiyələnmişdir. 1997-2005-ci illərdə N saylı hərbi hissədə Artilleriya batareyasının komandiri və briqadanın kəşfiyyat rəisi, 2006-2010-cu illərdə N saylı hərbi hissədə Artilleriya rəisinin köməkçisi, 2010-2011-ci illərdə N saylı hərbi hissədə Artilleriya rəisinin baş köməkçisi, 2014 sentyabr - 2015 yanvar tarixə qədər H.Əliyev adına Azərbaycan Ali Hərbi məktəbində müəllim, 2015-ci il yanvar ayından 2017-ci il aprel ayınadək N saylı hərbi hissədə Artilleriya bölməsi rəisinin baş köməkçisi vəzifəsində xidmət etmişdir. 2016- cı ilin aprel döyüşlərində "Lələ təpə"nin azad olunmasında öndə gedənlərimizdən biri olmuşdur.

Azərbaycan Respublikası Prezidenti adından Azərbaycan Respublikası Müdafiə Nazirinin müxtəlif tarixli əmrləri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 10,90 və 95 illiyi" yubiley medalları və III, II dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilmişdir.

2017-ci il aprel ayından öz arzusu ilə hərbi xidmətdən ehtiyata buraxılmışdır. Təqaüdə çıxmasına baxmayaraq, 01 oktyabr 2020-ci ildə N saylı hərbi hissədən könüllü olaraq Vətən müharibəsinə yollanmışdır. Döyüş yolu ilk əvvəl Ağcabədi rayonunda əsgərlərə təlim keçməklə başlayır. Sonra isə əsgərləri ilə birgə Füzulidə döyüşə qatılır. Hadrutda, Xocavənddə, Şuşada gedən döyüşlərdə fəal iştrak edən igidlərdən biri olur.

Müharibə zamanı ayağından yaralanmasına baxmayaraq, döyüşə davam etmişdir.

7 noyabr 2020-ci ildə sinəsindən 3 güllə yarası alsa da, 1 gün yaralı vəziyyətdə döyüşür.

O, 9 noyabr 2020-ci ildə Şuşada gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalmışdır. Bakı şəhər “2-ci Fəxri Xiyaban"da dəfn olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə mayor Alıyev Elçin Bayram oğlu ölümündən sonra “Vətən uğrunda”, 18 dekabr 2020-ci il tarixli Sərəncamı ilə “Döyüşdə fərqlənməyə görə”, 29 dekabr 2020-ci il tarixli Sərəncamı ilə “Qubadlının azad olunmasına görə”, həmçinin “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” medalları və “Rəşadət” ordeni medalları ilə təltif edilmişdir.

Ailəli idi, 3 övladı var.

Allah rəhmət eləsin!

**Allahverdiyev Vüsal Tahir oğlu**



Allahverdiyev Vüsal Tahir oğlu 16 avqust 1988-ci ildə Qubadlı şəhərində anadan olub.

2006-cı ildə Qubadlı Şəhər 2 saylı tam orta məktəbini bitirərək Azərbaycan Kooperasiya universitetinin maliyyə və kredit fakültəsinə daxil olmuş və həmin universiteti bitirmişdir. 2010-2011-ci illərdə Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə həqiqi hərbi xidmət keçmişdir.

2012-2015-ci illərdə “UNİBANK” Kommersiya Bankında İstehlak krediti üzrə aparıcı mütəxəssis vəzifəsində çalışmışdır. Daha sonra Kontakt Home mağazalar şəbəkəsində kredit mütəxəssisi kimi çalışmışdır. 2020-ci ildən Kapital Bankda “Birkart Bank olmayan Kredit Təşkilatı” MMC- nin 20 saylı filialının müdiri vəzifəsində işləmişdir. Sonra həmin vəzifədən öz ərizəsi ilə işdən çıxmışdır. 14 iyul 2020-ci ildə - Tovuz hadisələrində general-mayor

Polad Həşimov şəhid olduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qubadlı Rayon Bölməsinə müraciət etmiş və qeydiyyata alınmışdır. 01 oktyabr 2020-ci ildə könüllü olaraq Vətən müharibəsinə getmiş, Cəbrayıl istiqamətində həmlə bölüyünün tərkibində döyüşlərdə olmuşdur.

4 günlük mühasirədə qaldıqları vaxt böyük şücaət göstərərək, yaralı şəhidlərimizi döyüş mövqeyindən çıxartmağa müvəffəq olmuşdur. Sonuncu dəfə yaralı komandirini döyüş mövqeyindən çıxararkən, komandiri ağır yaralı olduğu üçün Vüsala onu buraxıb getməyini desə də, Vüsal bildirib ki, "ya ikimiz bir yerdə şəhid olacağıq, ya da burdan çıxacağıq". Həmin döyüşdən sağ-salamat çıxaraq komandiri hərbi hospitala çatdırsalar da, komandir şəhid olur. Füzulinin Seyidəhmədli kəndi istiqamətində döyüşlərdə iştirak edən Vüsal Allahverdiyev sonra Xocavənddə döyüşmüşdür. Döyüş yoldaşları Vüsalın onları döyüşə necə ruhlandırması barədə qürurla danışıb deyirlər ki, Vüsal hər zaman deyirdi: "Bir işin sonu şəhid olmaqdırsa, o işdən niyə qorxmalıyıq!". Vüsalın son döyüşü 30 oktyabr 2020-ci ildə Xocavənd istiqamətində olmuşdur. Hücum zamanı üzbəüz döyüşdə partlayış-qəlpə yarası ilə şəhidlik zirvəsinə ucalan Vüsal Allahverdiyev Sumqayıt şəhər "Şəhidlər xiyabanı"nda dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Allahverdiyev Vüsal Tahir oğlu ölümündən sonra "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalları təltif edilmişdir.

Subay idi.

Allah rəhmət eləsin

**Həsənzadə Məhəmmədəli Hörmət oğlu**



Qubadlı rayonunun Qilican kənd sakini Həsənzadə Məhəmmədəli Hörmət oglu 01 may 1999-cu ildə Sumqayıt şəhərində anadan olmuşdur.

2016-cı ildə Qubadlı rayon Yuxarı Mollu kənd tam orta məktəbini bitirərək Azərbaycan Dövlət Turizm və Menecment Universitetinin "Biznesin İdarə Edilməsi" fakultəsinə daxil olmuşdur. 2020-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qubadlı Rayon Bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır.

2020-ci il 27 sentyabr - Vətən Müharibəsi başlayan gündən Həsənzadə Məhəmmədəli Hörmət oğlu əvvəlcə Füzuli rayonu, daha sonra Xocavənd rayonu ərazisində döyüşmüşdür.

2020-ci il 6 noyabr tarixində Xocavənd rayonu ərazisində gedən ağır döyüşdə Həsənzadə Məhəmmədəli Hörmət oğlu torpaqlarımızın işğaldan azad olunması uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb və Sumqayıt şəhərində yerləşən "Şəhidlər xiyabanı"nda dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Həsənzadə Məhəmmədəli Hörmət oğlu ölümündən sonra "Vətən uğrunda", 25 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Subay idi.

Allah rəhmət eləsin!

**Məhərrəmov Ülvi Tahir oğlu**



Qubadlı rayonunun Sarıyataq kənd sakini Məhərrəmov Ülvi Tahir oğlu 05 iyul 1997-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur.

2012-ci ildə Mahruzlu kənd tam orta məktəbinin 9-cu sinfini bitirmiş və Bakı şəhəri Naxçıvanski adına Hərbi Məktəbə qəbul olmuş, 2015-ci ildə bitirmişdir. Hərbi məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Ali Hərbi Akademiyaya qəbul olmuş, 2019-cu ildə akademiyanı bitirib leytenat hərbi rütbəsi alaraq Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində tağım komandiri vəzifəsinə təyin olunmuşdur, 2020-ci ilin sentyabr ayından bölük komandiri vəzifəsinə təyin olunmuşdur. Vətən müharibəsində vətənin müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etmiş və 14 oktyabr 2020-ci ildə Xocavənd rayonu ərazisində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış və Sumqayıt şəhər “Şəhidlər xiyabanı"nda dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Məhərrəmov Ülvi Tahir oğlu ölümündən sonra “Vətən uğrunda” medalı, 25 dekabr 2020-ci il tarixli Sərəncamı ilə “Xocavəndin azad olunmasına görə” medalı, 29 dekabr 2020-ci il tarixli Sərəncamı ilə “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilmişdir. Subay idi.

Allah rəhmət eləsin!

**Mustafayev Rüfət Zöhrab oğlu**



Qubadlı rayonunun Dondarlı kənd sakini (əslən Aşağı Xocamsaxlı kəndindəndir) Mustafayev Rüfət Zöhrab oğlu 12 mart 1996-cı il tarixdə Sumqayıt şəhərində anadan olmuşdur.

2013-cü ildə Sumqayıt şəhərində yerləşən 18 saylı tam orta məktəbini bitirərək Azərbaycan Texniki Universitetinə qəbul olmuş, 2017-ci il tarixdə universiteti bitirmişdir.

2019-cu ilin oktyabr ayının 23-də həqiqi hərbi xidmətə çağrılmış, Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirmişdir.

27 sentyabr 2020-ci il tarixdə başlanan Vətən müharibəsi döyüşlərində fəal iştirak etmiş, cəsarəti və cəsurluğu ilə seçilmişdir.

12 oktyabr 2020-ci il tarixdə Suqovuşan və Talış kəndləri uğrunda gedən qızğın və üzbəüz döyüşdə qəhrəmancasına şəhid olmuş və Sumqayıt şəhər "Şəhidlər xiyabanı"nda dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Mustafayev Rüfət Zöhrab oğlu ölümündən sonra "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə", 18 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Subay idi.

Allah rəhmət eləsin!

**İsgəndərov İlkin Camal oğlu**



Qubadlı şəhər sakini İsgəndərov İlkin Camal oğlu 18 mart 1999-cu ildə Sumqayıt şəhərində anadan olmuşdur.

2016-cı ildə Qubadlı rayon Kavdadıq kənd tam orta məktəbini bitimişdir.

2018-2019-cu illərdə Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə həqiqi hərbi xidmətdə olmuşdur. Vətən müharibəsi başlayan zaman könüllü olaraq döyüşlərə qatılmışdır.

Füzuli və Cəbrayıl rayonlarında gedən döyüşlərdə fəal iştirak etmiş və döyüşlərdə fəal iştirak etdiyinə görə ona çavuş hərbi rütbəsi verilmişdir.

25 oktyabr 2020-ci il tarixdə Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Sumqayıt şəhər “Şəhidlər xiyabanı"nda dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə İsgəndərov İlkin Camal oglu ölümündən sonra “Vətən uğrunda” və 25 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Subay idi.

Allah rəhmət eləsin!

**Abışov Sirac Abış oğlu**



Abışov Sirac Abış oğlu 1989-cu il 29 avqust tarixində Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuşdur. 1996-cı ildə Sumqayıt şəhər Ç.Mustafayev adına 40 saylı tam orta məktəbinə qəbul olmuş , 2007-ci ildə həmin məktəbin məzunu olmuşdur. Elə həmin il Azərbaycan Dəniz Balıq Sənayesi texnikumuna daxil olmuş, 2009-cu ildə Gömrük ekspertizası ixtisası üzrə tam kursu bitirmişdir.

Media sahəsinə olan marağı onun yolunu 2010-cu ildən etibarən Azərbaycan Dövlət Televiziyası və Radiosu Qapalı Səhmdar Cəmiyyətindən salır. Bir müddət "Yurd tv"-də, daha sonra 2020-ci ilin noyabr ayından etibarən işğaldan azad olunmuş rayonlarda yaradılmış, Xüsusi Çəkiliş Qrupunun tərkibində yer almış, ordumuzun nəzarətində olan Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Xocalı, və Xocavənd rayonlarının bütün ərazilərində dövlət əhəmiyyətli çəkilişlər etmişdir. Əsrarəngiz təbiətə malik olan Kəlbəcərdə növbəti çəkiliş 04.06.2021-ci il tarixində Susuzluq kəndindən başlayacaqdı. Lakin kənd ərazisinə daxil olarkən heyəti aparan Kamaz Markalı nəqliyyat vasitəsi mənfur düşmənlərin tank əleyhinə basdırdığı minaya düşür. Sirac Abışov həmin hadisə nəticəsində dünyasını dəyişərək şəhidlik zirvəsinə ucalır. Şəhid jurnalist Sirac Abışov Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 14.06.2021-ci il tarixli Sərəncamı ilə 3-cü dərəcəli Vətənə Xidmətə Görə Ordeni ilə təltif edilmişdir.

Ailəli idi, övladı Özgür adında bir övladı var.

**Rəhimli Orxan Elxan oğlu**



Qubadlı rayonunun Qiyaslı kəndindən olan Rəhimli Orxan Elxan oğlu 1992-ci il 20 iyun tarixində Sumqayıt şəhərində anadan olmuşdur. 1997-ci ildə Sumqayıt şəhər Hacı Zeynalabdin Tağıyev qəsəbəsində yerləşən Laçın rayonu, Fizuzəddin Cəfərov adına məktəbə daxil olmuş, 2008-ci ildə həmin məktəbi bitirmişdir. Məktəbi bitirdikdən sonra Cəlilabad şəhərində yerləşən N saylı hərbi hissədə xidmətdə olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra Quba Texniki Kollecində "Yol hərəkətinin təşkili" ixtisası üzrə təhsil almışdır. 2014-cü ildən N saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət (MAXE) vəzifəsində çalışmışdır. Aprel döyüşlərində iştirak etmişdir. İkinci Qarabağ müharibəsində Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının azad olunmasında iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Laçın və Füzuli rayonlarının azad olunmasına görə medalları ilə təltif olunmuşdur.

28.06.2021-ci il tarixində Laçın rayonu ərazisində Kamaz markalı hərbi yük avtomobilinin qəzaya uğraması nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Orxan Rəhimli şəhid olmuşdur. Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ailəli idi, Hüseyn və Pəri adında iki övladı var.

Allah rəhmət eləsin!



# Zəngilan rayonu



**Abdüləzimli Emil Rasif oğlu**



Abdüləzimli Emil Rasif oğlu 06 dekabr 1994-cü ildə Sumqayıt şəhərində anadan olub. 2001-ci ildə 1 saylı Sumqayıt şəhər orta məktəbinin 1-ci sinfinə daxil olub. 2002-2012-ci illərdə Abşeron rayonu, Masazır qəsəbəsi 2 saylı tam orta məktəbində təhsil alıb. 2012-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirib. 2012-ci ildə yüksək balla Azərbaycan Kooperasiya Universitetinə qəbul olunan Emil Abdüləzimli 2016-cı ildə universiteti yüksək naliyyətlərlə bitirib.

Həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Zəngilan rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2017-ci ildə Naxçıvan MR-nın Culfa şəhəri N saylı hərbi hissədə hərbi xidmətini başa vuran Emil Abdüləzimli hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib.

27 sentyabr 2020-ci il tarixdən etibarən başlayan, Azərbaycan Ordusunun apardığı əks hücum əməliyyatlarına könüllü olaraq qatılıb. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə Füzuli, Şuşa və Hadrut istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. 19 oktyabr 2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Subay idi. 20 oktyabr 2020-ci ildə Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

15 dekabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

**Abdullayev Sənan Şahin oğlu**



Abdullayev Sənan Şahin oğlu 1998-ci il noyabr ayının 1-də Bakı şəhərində anadan olub. Əslən Zəngilan rayonunun Ağbis kəndindən olan Sənan Abdullayev 2005-ci ildə Nərimanov rayonu, Məzahir Məmmədov adına 37 saylı tam orta məktəbdə təhsil almağa başlayıb. 2016 -cı ildə həmin məktəbi bitirib. Məktəb illəri ərzində nümunəvi şagird olub, hərbi hazırlıq dərslərində fəal iştirak edib. Həmçinin güləş, boks və qaydasız döyüş kimi idman növlərində naliyyətlər əldə edib, medallarla təltif olunub.

2017-ci ildə N saylı hərbi hissədə Kəşfiyyat briqadasında hərbi xidmətə başlayıb. Hərbi xidmətdə olduğu müddətdə nümunəvi əsgər kimi "Təşəkkürnamə" və "Fəxri Fərman"-la təltif olunub, komandirləri tərəfindən seçilərək N saylı hərbi hissədə Xüsusi Təyinatlı Qüvvələrdə hərbi xidmətini davam etdirib.

Hərbi xidməti bitirdikdən sonra bir neçə özəl obyektdə satıcı kimi işləməyə başlayan Sənan Abdullayev işlədiyi müddət ərzində kollektivin rəğbətini qazanıb.

General-mayor Polad Həşimovun ölümü ilə sarsılan Sənan Cənab Ali Baş Komandan İlham Əliyevin səfərbərlik əmri verilən kimi könüllü olaraq hərbi komissarlığa müraciət edib. Ehtiyac olduğu təqdirdə xəbər veriləcəyi bildirilsə də, təkidlə onun cəbhə bölgəsinə döyüşə aparılmasını istəyib. 2020-ci il 30 sentyabr tarixində bu istəyinə nail olub. Döyüşə gedərkən üçrəngli bayrağımızı özü ilə aparan igid əsgər bayrağı Zəngilan rayonuna sancacağını bildirib. Döyüş zamanı Füzuli istiqamətində irəliləyərək komandiri və döyüş yoldaşları ilə birlikdə 3 post alaraq düşmən hərbiçilərini məhv ediblər. Döyüş əməliyyatını layiqincə yerinə

yetirən Sənan Abdullayev mühasirəyə alınmış döyüş yoldaşlarını qorumaq üçün öz canını sipər edib. 5 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə alnından snayperlə vurularaq Şəhid olub. Cənazəsi doğulduğu gün - 1 noyabrda neytral ərazidən tapılıb. Subay idi. 20 noyabr 2020 -ci ildə II Fəxri Xiyabanda dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Abdullayev Sənan Şahin oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Hüseynov İmamalı Cəlil oğlu**



Hüseynov İmamalı Cəlil oğlu 03 dekabr 1992-ci ildə Zəngilan rayonunun Tağlı kəndində anadan olmuşdur. 1999-cu ildə Abşeron rayonu, Mehdiabad qəsəbəsi 2 saylı tam orta məktəbinə daxil olub, həmin məktəbi bitirdikdən sonra Bakı şəhər Dərnəgül qəsəbəsində yerləşən Texniki Peşə məktəbində oxuyub. 2012-2014-cü illərdə Daxili Qoşunların tərkibində həqiqi hərbi xidmətdə olub. Hərbi xidməti başa vurduqdan sonra Baş Mühafizə idarəsinin mühafizə xidmətində işləyib.

Hərbiyə olan böyük marağı onu 2009-cu ildə Azərbaycan Respublikası Dövlət Sərhəd xidmətinə gətirib çıxarır. Sərhəd Qoşunlarının N saylı hissəsində müddətdən artıq hərbi xidmətə yollanaraq kiçik gizir vəzifəsində işləyib. 27 sentyabr 2020-ci il tarixdən başlamış İkinci Qarabağ savaşında Vətənin bölünməzliyi və müstəqilliyi uğrunda gedən müharibədə Füzuli və Cəbrayıl rayonları istiqamətində gedən döyüşlərdə iştirak edib. 09 oktyabr 2020-ci il tarixdə Füzuli istiqamətindəki döyüşlərdə qəhrəmancasına həlak olaraq Şəhidlik zirvəsinə ucalmışdır.

Subay idi. Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən İmamalı Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı, "Döyüşdə fərqlənməyə görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**Məhərrəmov Fərid Asif oğlu**



Məhərrəmov Fərid Asif oğlu 8 fevral 2002-ci ildə Bakı şəhərində anadan olub. Əslən Zəngilan rayonu Cahangirbəyli kəndindən olan Fərid Məhərrəmov ilk təhsilini 2009-cu ildə Xocəvəd rayon tam orta ümumtəhsil məktəbində alıb. Təhsilini 2019-cu ildə Kəlbəcər rayon 17 saylı məktəbində bitirib. Məktəbdə oxuduğu illər ərzində idmanın Qaydasız döyüş növü ilə məşğul olub. Bu idman növündə bir neçə fəxri adlar alıb. Gürcüstan respublikasında keçirilən yarışlarda 1-ci yerə layiq görülüb.

2020-ci ilin may ayında Bərdə rayonuna həqiqi hərbi xidmətə yollanıb. Xidməti borcunu ləyaqətlə yerinə yetirən igid əsgər torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində Goranboy, Tərtər və Ağdərə istiqamətindəki döyüşlərdə iştirak edib.

Məhərrəmov Fərid Asif oğlu 07 oktyabr 2020-ci il tarixdə Ağdərə və Talış kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək Şəhid olub. Subay idi. Sumqayıt şəhər qəbirstanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Məhərrəmov Fərid Asif oğlu ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

**Mehdiyev İsmayıl Davud oğlu**



Əslən Zəngilan rayonunun Mincivan qəsəbəsindən olan Mehdiyev İsmayıl Davud oğlu 23 yanvar 2002-ci ildə Bakı şəhərində anadan olub. 2008-2016-cı illərdə Abşeron rayonu Xırdalan qəsəbəsində fəaliyyət göstərən Laçın rayonunun 1 saylı məktəbində təhsil alıb. 8-ci sinfi bitirdikdən sonra Naxçıvan şəhərində Heydər Əliyev adına hərbi liseydə təhsilini davam etdirib. 2019-cu ildə Bakı şəhərində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi təhsil almağa başlayıb.

2020-ci ilin may ayında ərizə yazaraq cəbhə bölgəsinə yollanıb. 27 sentyabr 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərə könüllü olaraq qatılıb. Döyüşlərdə böyük şücaət göstərərək Zəngilan, Qubadlı rayonlarının alınmasında iştirak edib, Xocəvənd istiqamətində gedən döyüşlərdə, yuxarı Veysəlli kəndində 01 noyabr 2020-ci il tarixdə itkin düşüb.

Şəhidin nəşi dekabr ayının 12-də tapılıb, II Fəxri Xiyabanda dəfn olunub. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə Mehdiyev İsmayıl Davud oğlu ölümündən sonra “Vətən uğrunda”, "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Məmmədov Xəqani Füzuli oğlu**



Məmmədov Xəqani Füzuli oğlu 30 mart 2002-ci il tarixdə Şirvan şəhərində anadan olub. Əslən Zəngilan rayon Qaradərə kəndindən olan Xəqani Məmmədov 2009-cu ildə Şirvan şəhərində yerləşən Zəngilan ra-

yon 3 nömrəli tam orta məktəbinin birinci sinfinə daxil olmuş, 2020-ci ildə həmin məktəbi bitirmişdir.

2020-ci ilin iyul ayında SHXÇDX-nın Zəngilan rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Xidməti borcunu ləyaqətlə yerinə yetirən igid əsgər 27 sentyabr 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Suqovuşan istiqamətindəki döyüşlərdə qəhrəmanlıq göstərərək 04 oktyabr 2020-ci il tarixdə Şəhid olub.

Həmin ərazidə döyüşlər davam etdiyi üçün şəhidin nəşini bir neçə gün sonra Suqovuşan düşməndən azad edildikdən sonra, 09 oktyabr 2020-ci il tarixdə həmin ərazidən götürülüb. Subay idi. 10 oktyabr 2020-ci il tarixdə Şirvan şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Məmmədov Xəqani Füzuli oğlu ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" , "Suqovuşannın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Vətən Müharibəsi Qəhrəmanı**
**Kapitan Noçuyev Surxay Əbdül oğlu**



Noçuyev Surxay Əbdül oğlu 1988-ci il dekabr ayının 19-u Zəngilan rayonu Məmmədbəyli kəndində anadan olub. 1995-2002-ci illərdə Bakı şəhərində Xarici Dillər Təmayüllü Gimnaziyada, 2002-2005-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2005-2009-cu illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbində ali hərbi təhsil alıb. 2010-cu ildə leytenant rütbəli Zabit kimi hərbi fəaliyyətə başlayıb.

Zabit kimi fəaliyyəti müddətində Tağım komandiri, Bölük komandiri, Taborun qərargah rəisi və 29 yaşında Tabor

komandiri vəzifəsinə təyin edilib. 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnən dördgünlük aprel döyüşlərində iştirak edib. Xidmət fəaliyyəti dövründə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı və bir çox Fəxri Fərmanlarla təltif olunmuşdur.

2020-ci il sentyabrın 27-si tarixində Vətən müharibəsi başlayan gündən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə ön cəbhədə tabor komandiri kimi döyüşüb. Xüsusən Füzuli və Qubadlının işğaldan azad olunması uğrunda gedən ağır döyüşlərdə, düşmənin müdafiə səddinin yarılmasında bir neçə döyüş əməliyyatının fəal iştirakçısı olub. Düşmənin çoxsaylı canlı qüvvəsini və texnikasını məhv edib. 8 noyabr tarixində Şuşa şəhərinin azad olunması uğrunda gedən tarixi döyüşlərdə, uğurlu döyüş taktikası ilə tabeliyində olan şəxsi heyəti müdafiə edərək Vətən müharibəsinin sonuncu günündə qəhrəmancasına Şəhid olub.

12 noyabr 2020-ci il tarixdə 2-ci Fəxri Xiyabanda dəfn olunub. Ailəli idi, iki övladı yadigar qalıb. Kapitan Noçuyev Surxay Əbdül oğlu ölümündən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən Uğrunda" medalı və "Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.



**Rzazadə Həsən Vüqar oğlu**

Rzazadə Həsən Vüqar oğlu 15 iyun 1994-cü ildə Sumqayıt şəhərində anadan olub. Əslən Zəngilan rayonunun Mincivan qəsəbəsindən olan Həsən Rzazadə 2001-ci ildə Qusar rayonunun Yuxarı Zeyxur kənd orta məktəbində təhsil almağa başlayıb. 2011-ci ildə həmin məktəbi bitirib. 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. 2015-ci ildə leytenant hərbi rütbəsi ilə Təlim Tədris Mərkəzində təhsilini davam etdirib.

2016-cı ildə N saylı hərbi hissədə hərbi xidmətə başlayıb. Xidməti zərurətlə bağlı 2017-ci ildə Sülhməramlı qüvvələrdə tağım komandiri vəzifəsində davam etdirib. 2018-ci ildə Baş leytenant rütbəsi alıb. 2019-cu ilin yanvar ayından 6 ay müddətinə Əfqanıstana ezam olunub.

27 sentyabr 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə könüllü olaraq ön cəbhəyə gedib. Zəngilan, Qubadlı və Laçın rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib.

Oktyabrın 29-u Laçın dəhlizi uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. 31 oktyabr 2020-ci ildə II Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə ", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Sarıyev Samir Əli oğlu**



Sarıyev Samir Əli oğlu 26 oktyabr 1993-cü ildə Əlibayramlı şəhərində anadan olub. Əslən Zəngilan rayonu Malatkeşin kəndindən olan Samir Sarıyev 2009-cu ildə Laçın rayonu 9 saylı tam orta məktəbini bitirib. 2012- 2013-cü illərdə hərbi xidmətdə olmuş, xidmət etdiyi hərbi hissənin komandiri General-mayor Polad Həşimov tərəfindən 2013-cü ildə nümunəvi xidmətinə görə valideynlərinə təşəkkür məktubu göndərilib.

27 sentyabr 2020-ci il tarixdə başlayan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılan Samir Sarıyev Xocavənd və Füzuli rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 27 oktyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Subay idi. 15 noyabr 2020-ci ildə Suraxanı rayonu Dədə Qorqud qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Sarıyev Samir Əli oğlu ölümündən sonra "Xocavəndin azad olunmasına görə" , "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunmuşdur.

**Səfərov Fariz Şəmil oğlu**



Səfərov Fariz Şəmil oğlu 13 noyabr 1981-ci ildə Zəngilan rayonunun Şayıflı kəndində anadan olub. 1988-ci ildə Zəngilan rayon Şayıflı kənd orta məktəbinin I sinifinə daxil olub. Yurdumuzun erməni işğalından sonra məcburi köçkün kimi ailəsi ilə birlikdə Hacıqabul rayonunda məskunlaşıb. Hacıqabul rayon Qazıməmməd məktəbinin XI sinifini bitirib.

Fariz Səfərov orta məktəbi bitirdikdən sonra 2000-2001-ci illərdə həqiqi hərbi xidmətdə olub. Hərbi xidməti başa vurduqdan sonra 2001-ci ildən Hacıqabul rayon Qazıməmməd dəmir yol stansiyasında işləyib. 2020-ci ilin noyabrından Hacıqabul rayon mərkəzi xəstəxanasında təcili tibbi yardım sürücüsü işləyib.

Fariz Səfərov 27 sentyabr 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərə könüllü olaraq qatılıb. 02 noyabr 2020-ci il tarixdə Xocavənd ərazisində gedən döyüşlərdə böyük şücaət göstərərək Şəhid olmuşdur.

Ailəlidir. Dörd övladı yadigar qalıb. Bakı şəhəri Ramana kənd qəbirstanlığında dəfn edilib.



## 3. 44 Gün. Şərəf, Qürur, Zəfər Tariximizin Gündəliyi




Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. İndiyədək Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bəyanata əsasən 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarılmalıdır.

Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilib.

Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olunub.

Üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.

Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edilib.

Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşıb.

AZƏRTAC işğaldan azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısını təqdim edir:

***27 sentyabr***

Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri

Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri

Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

***3 oktyabr***

Tərtər rayonunun Suqovuşan və Talış kəndləri

Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

***4 oktyabr***

Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

***5 oktyabr***

Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

***9 oktyabr***

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri

Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri

Tərtər rayonunun Çaylı kəndi

***14 oktyabr***

Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri

Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

***15 oktyabr***

Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri

Füzuli rayonunun Arış kəndi

Cəbrayıl rayonunun Doşulu kəndi

***16 oktyabr***

Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

***17 oktyabr***

Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

***18 oktyabr***

Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

***19 oktyabr***

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

***20 oktyabr***

Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri

Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri

Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

***21 oktyabr***

Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri

Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri

Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

***22 oktyabr***

Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi

Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri

Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

***23 oktyabr***

Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri

Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri

Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri

Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

***25-26 oktyabr***

Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri

Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri

Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

***28 oktyabr***

Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri

Füzuli rayonunun Mandılı kəndi

Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri

Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

***30 oktyabr***

Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri

Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri

Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

***2 noyabr***

Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri

Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri

Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

***4 noyabr***

Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri

Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri

Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

***7 noyabr***

Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri

Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri

Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri

Zəngilan rayonunun Beşdəli kəndi

Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri

Xocalının Qarabulaq, Moşxmaat kəndləri

***8 noyabr***

ŞUŞA şəhəri

***9 noyabr***

Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri

Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri

Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx,Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri

Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri

Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri

Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi

Laçın rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri

***10 noyabr***

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

Bəyanata əsasən 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonu, noyabrın 20-dək Ağdam rayonu, dekabrın 1-dək isə Laçın rayonu Azərbaycana qaytarılacaq.

***20 noyabr***

Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi azad olunub.Xatırladaq ki, Ağdam işğal edilmiş rayonlarımızın arasında əhalinin sayına görə ən böyük rayondur. Rayonda 138 yaşayış məntəqəsi var.

***25 noyabr***

Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu da Azərbaycana təhvil verilib.

Qeyd edək ki, Kəlbəcər ərazi baxımından respublikamızın ən böyük rayonlarından biridir.

2020-ci il yanvarın 1-nə olan məlumata görə, əhalisi 77 min nəfərdən çoxdur. İşğaldan əvvəl rayonda 147 yaşayış məntəqəsi olub.

***1 dekabr***

Üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı birləşmələri Laçın rayonundan çıxıblar. Rayon Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib.

Ərazisi 1800 kvadratkilometr olan Laçın rayonunda bir şəhər, bir qəsəbə və 125 kənd olmaqla, ümumlikdə 127 yaşayış məntəqəsi var.

https://azertag.az/xeber/Isgaldan_azad_edilmis_seher_ve_kendlerimiz-1622227

## Bu Zəfər Sizindir, Şəhidlər!
## Şəhidlərimiz: 2907, itkinlərimiz: 7.



## Şəhidlər ölməz, Vətən bölünməz



# Başlıqlar


**Şəhid ailələrinə qayğı dövlətimizin siyasətində prioritetdir**.3

**1. Şəhidlik - ən uca, müqəddəs məqamdır**..............................11

**ŞƏHİDLƏR ANISINA, DOĞMALAR ACISINA 4 ESSE.**

**Şəhid atam - qalibiyyət bayrağım** ............................................17

**Doğmaların şeirlərində əbədiləşən Şəhidlik**..........................21

**Şəhid anasının ağıları**.................................................................25

**Şəhidim - ilk sevgim, son məhəbbətim...**.................................29

**Danışan fotolar** ..........................................................................33

**2. Şəhidlərimizi tanıyaq və tanıdaq: Şərqi Zəngəzur elləri**..44

**Cəbrayıl rayonu** .........................................................................44

**Laçın rayonu** ..............................................................................74

**Kəlbəcər rayonu**.........................................................................88

**Qubadlı rayonu**.........................................................................124

**Zəngilan rayonu**........................................................................139

**3. 44 Gün. Şərəf, Qürur, Zəfər Tariximizin Gündəliyi**....150

**Bu Zəfər Sizindir, Şəhidlər!**.................................................157



## HACI NƏRİMAN OĞLU ABDULLA

Qubadlı rayonunun Saray kəndində doğulub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Qubadlı rayon komsomol və icraiyyə komitələri, İcra hakimiyyətində, AzərTAc, AR Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, AR Sənaye və Energetika Nazirliyi, AR Prezidenti yanında Bilik Fondu, Azərbaycan Dövlət Tərcümə Mərkəzində işləyib. 2008-ci ildən "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri, *www.zengezur.com* saytının təsisçi, baş redaktorudur. 21 kitabın, Azərbaycan, türk, rus, ingilis dillərində dərc olunmuş 100-dən çox elmi, elmi-publisistik məqalənin müəllifi, tarix üzrə fəlsəfə doktoru, Qarabağ müharibəsi veteranıdır.

**Hacı  Nərimanoğlu**

# ŞƏHİDLƏR

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Ümrə Musayeva, Emil Salayev

Çapa imzalanıb: 16.02.2022.
Nəşrin formatı: 60x84 1/16.
Şərti çap vərəqi: 10,75.
Tiraj: 200.
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69